QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Qarabağa qayıdış artıq gerçəkdir"



4

# BEYNƏLXALQ SÜLH VƏ RİFAH MARŞRUTU!



5

SƏS

№ 141 (7309)

9 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

# Sülh üçün tarixi gün!



*İlham Əliyev: "Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik, bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük imkandır"*

2

## Rusiyanın Azərbaycan düşmənçiliyi bitmir...



4

## Qoy gözümüzü telefon yox, kitab "kor" etsin



3

## Məişət zorakılığını gizlədən şəxsləri hansı cəza gözləyir?



10

## "Sovetski"də abadlıq işlərinin üçüncü mərhələsinə start verilib



11

# Sülh üçün tarixi gün!





*İlham Əliyev: “Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik, bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük imkandır”*

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağ Evə gəlib. Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını qarşılayıb. Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzalayıblar.







*Donald Tramp: “Tramp marşrutu” Azərbaycanın əsas hissəsini Naxçıvan ilə birləşdirəcək*

“Ermənistan və Azərbaycan 30 ildən çox müharibə içində idi. Bu müharibə hər iki dövlətə böyük ziyanlar vurmuşdur.” Bu sözləri ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə söyləyib. “Mənim istəyim bölgədə sülhün və rifahın təmin olunmasıdır.” D.Tramp bəyan edib ki, “Tramp marşrutu” Azərbaycanın əsas hissəsini Naxçıvan ilə birləşdirəcək.

“Həqiqətən də “Tramp Rifah və Sülh Marşrutu” əlaqələr baxımından bu divarları yox edəcək, əlaqələr yaradacaq və bir sıra ölkələr üçün həm investisiya, sərmayə, sabitlik və rifah baxımından böyük imkanlar açacaq.” Bunu Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə mətbuata birgə bəyanatında deyib.

Prezident Tramp və onun komandası olmasaydı, bizim yaxın dostumuz cənab Uitkoff və onun komandası olmasaydı, yəqin ki, bu gün Ermənistan və Azərbaycan yenə tükənməyən bir danışıqlar prosesində qalardı. 907-ci düzəliş 33 ildən sonra bu gün ləğv olundu. Dövlətimizin başçısı bununla bağlı ABŞ Prezidenti Donald Trampa təşəkkürünü ifadə edib. Dövlətimizin başçısı daha sonra bildirib ki, “Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik, bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük imkandır.” Prezident Donald Tramp Qafqaza sülh gətirir. ”Tramp sülh yolu” bir çox ölkə üçün böyük imkanlar açacaq. “Bizim strateji tərəfdaşlığımız başlayır”, - deyən dövlətimizin başçısı dünyanın ən böyük ölkəsi ilə strateji tərəfdaşlığı böyük imkan və böyük məsuliyyət kimi dəyərləndirib.

Ardı Səh. 3

# Sülh üçün tarixi gün!

## *Nikol Paşinyan: “Ermənistan və Azərbaycan ikitərəfli münasibətlər baxımından fundamental bir mərhələyə qədəm qoyur”*















Əvvəli-Səh-4

“Həqiqətən də tarixi bir gündür və bu, bizim ölkələrimizin arasında və regionumuz üçün uğurdur. Dünya da bundan qazanacaq, çünki bu, sülh içində yaşayan bir region və daha ədalətli bir dünya deməkdir.”

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp ilə mətbuata birgə bəyanatında deyib.

“Trampın Sülh və Rifah Marşrutu”nun tamamlanması və icra olunması kontekstində bir yerdə bərabər şəkildə çalışacağıq. Sülh sazişinin hazırlanması və imzalanması, nəticə etibarilə iki ölkə arasında yeni bir mərhələnin açılması və ölkələrimiz arasında suverenliyin və ərazi bütövlüyünə hörmətlə yanaşılmasının başlanğıcıdır. Ermənistan və Azərbaycan ikitərəfli münasibətlər baxımından fundamental bir mərhələyə qədəm qoyur.

Keçmişi keçmişdə qoyaraq irəli baxırıq. Bu mərhələ Prezident Trampın şəxsi iştirakı olmadan mümkün olmazdı” - deyə Ermənistanın Baş naziri vurğulayıb.

### Vaşinqtonda Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb

Avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.

### Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar.

# Rusiyanın Azərbaycan düşmənçiliyi bitmir...



***Rusiya Federasiyasının son illərdə həm regional, həm də beynəlxalq siyasətdə yürütdüyü aqressiv kurs, postsovet məkanında yeni bir "işğalçı model"in formalaşmasına səbəb olub.***

Xüsusilə son günlər Azərbaycanın yürütdüyü müstəqil xarici siyasət kursu, ABŞ ilə yüksək tərəfdaşlıq siyasəti, habelə Ermənistanla sülh müqaviləsinin imzalanması üçün ABŞ Administrasiyası ilə aparılan səmərəli müzakirələr Moskvada ciddi qıcıqla qarşılanıb. Rusiyadakı azərbaycanlılara qarşı görülməmiş vəhşilik, AZAL təyyarəsinin vurulması ilə nəticələnən faciənin baş verməsi Kremlin Azərbaycana qarşı açıq düşmənçilik siyasətinin təzahürü idi. Bu siyasət Azərbaycanın maraqlarına, iqtisadi və diplomatik fəaliyyətinə qarşı yönəlmiş ardıcıl zərbələrlə özünü büruzə verir.

### SOCAR-ın Ukraynadakı yanacaqdoldurma məntəqələri niyə vuruldu?

Azərbaycan neftinin Ukraynanın Odessa limanı vasitəsilə Avropaya çıxışı, eləcə də SOCAR-ın bu ölkədəki yanacaqdoldurma məntəqələrinin və ofislərinin geniş fəaliyyəti artıq uzun illərdir ki, regionda enerji təhlükəsizliyinə töhfə verir. Lakin son aylarda bu obyektlər ardıcıl şəkildə Rusiya raketlərinin hədəfinə çevrilir.

SOCAR-a məxsus yanacaqdoldurma məntəqəsinin növbəti dəfə raket atəşi nəticəsində dağıdılması və daha öncə Azərbaycanın Kiyevdəki səfirliyinin yaxınlığına və SOCAR ofisinin qarşısına raketlərin düşməsi, bu aktların təsadüfi olmadığını göstərir. Bu, birbaşa Azərbaycanın Ukrayna ərazisindəki diplomatik və iqtisadi maraqlarına yönəlmiş təxribatdır.

### AZAL təyyarəsinin vurulması - cavabsız qalan suallar...

Azərbaycan Hava Yollarına məxsus təyyarənin vurulması isə bu düşmənçiliyin daha bir acı nümunəsi kimi tarixə yazıldı. Rusiya bu hadisə ilə bağlı bu günə qədər aydın, qaneedici izahat verməyib. Bu isə Moskvanın məsuliyyətdən yayınma taktikasının və özünü "toxunulmaz güc" kimi təqdim etməyə çalışmasının göstəricisidir.

### Yekaterinburqda azərbaycanlılara qarşı təxribat – daxili siyasətin ifadəsi

Yekaterinburqda baş verən hadisələr – azərbaycanlılara qarşı yönəlmiş qərəzli davranışlar, hüquq-mühafizə orqanlarının biganə münasibəti – Rusiyanın daxildə də Azərbaycana və azərbaycanlılara qarşı mənfi münasibətinin göstəricisidir. Bu hadisələr rəsmi dairələrin səssizliyi fonunda sanki təşviq olunur. Rusiya öz hərbi gücünü və siyasi təsir imkanlarını yalnız qorxu vasitəsi kimi istifadə edərək postsovet məkanını nəzarət altında saxlamaq niyyətini gizlətmir. Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğalda saxlamasına siyasi və hərbi dəstək vermiş Moskva, indi də Ukraynada eyni siyasəti davam etdirir. Bu, Rusiyanı açıq şəkildə regionun ikinci işğalçı dövləti statusuna gətirir.

Və nəhayət ki, SOCAR-ın Ukraynadakı yanacaqdoldurma məntəqələrinin Rusiya tərəfindən vurulması açıq şəkildə düşmənçilik siyasətinin davamıdır. Rusiya rəhbərliyi son addımı ilə bir daha isbatladı ki, bölgədəki sülh və inteqrasiya əvəzinə hədə-qorxu, düşmənçilik siyasətini öndə saxlayır. Lakin real siyasətin bizə aydın şəkildə göstərdiyi gerçəklik də odur ki, Rusiya hazırda bölgənin inkişaf və sülh məkanına çevrilməsi üçün aparılan sürətli və uğurlu prosesin qarşısını almaqda acizdir. Moskva acizliyini düşmənçiliyi alovlandırmaqla ortaya qoyur...

***"SƏS" Analitik Qrupu***

# Ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlar



## *60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdıldı*

Meşələrin məhvi təbiətə qarşı terrordur və hər bir insanın onu qoruması üzərimizə məsuliyyət qoyur. Ölkəmizin meşə ehtiyatının 49%-i Böyük Qafqaz regionunun, 34%-i Kiçik Qafqaz regionunun, 15%-i Talış zonasının və 2%-i Aran zonasının (Naxçıvan MR ilə birlikdə) payına düşür. Azərbaycanda adambaşına 0,12 ha meşə sahəsi düşür. Ölkəmizi, dünyamızı yaşıllıqlara qərq etməliyik. Əbəs deyil ki, müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin, planetimizin qorunması diqqətdədir. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək planetimizə görə məsuliyyət daşıyırlar. Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanmasına hər kəs, bütün dünya ictimaiyyəti töhfələrini verməlidir. Əlbəttə ki, bioenergetik varlıq olan insan təbiətlə birgə təmasdadır, yaşayır və inkişaf edir. Demək, təbiətsiz canlı varlıqlar, insan məhv olar. Təbiətə gözəllik, yaraşıq verən, onu zənginləşdirən isə meşələridir. Bu da bizim sağlamlığımız üçün çox vacib şərtlərdən biridir. Biz yaşıllığı nə qədər çox artırsaq hava o qədər təmiz olar, meşələrin qırılması isə təbiətin məhvi deməkdir. Meşələrin qırılması oksigenin azalmasına, ekologiyanın pozulmasına gətirib çıxarır ki, bu da təbiətin məhvi deməkdir.

Təbii ki, təbiətə qayğı hər kəsdə olmalıdır. Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanıb. Respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14%-ni təşkil edir. Meşə ilə örtülü sahələr isə 1021min hektardır ki, bu da respublika ərazisinin 11,8 %-ni əhatə edir. Demək, Azərbaycanın meşə fondu kifayət qədər ərazini əhatə edir. Ekoloji mühitin əsas tərkib hissələrindən hesab olunan meşələr qlobal ekoloji problemlərdən hesab olunan iqlim dəyişmələrinin, səhralaşma proseslərinin genişlənməsinin, bioloji müxtəlifliyinin azalmasının, atmosferdə qaz balansının pozulmasının qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycanın sosial-iqtisadi, mədəni, müdafiə sahəsindəki inkişafında da əhəmiyyətli rola malikdir.

### "1988-Cİ İLDƏ MEŞƏ FONDU 228 MİN HEKTAR TƏŞKİL EDİRDİ, 2020-Cİ İLDƏ İSƏ CƏMİ 174 MİN HEKTAR"

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyanlar vurulub. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar". 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı findığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir". Dövlət başçısı azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqların da olduğunu bildirib: "Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb".

### TOPXANA ƏSL TƏBİƏT MÖCÜZƏSİ İDİ

Məlumdur ki, Şuşa şəhəri yaxınlığında yerləşən meşə və dövlət qoruğu olan Topxana meşəsinin 1988-ci ildə dağıdılması Qarabağın siyasi gələcəyi ilə bağlı gərginliyə səbəb oldu. Qarabağ müharibəsi ilə nəticələnən sivil və inter-etnik iğtişaşlara gətirib çıxardı. Topxananın adı 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirə etdiyi zaman topların yerləşdirildiyi yer olması ilə bağlıdır. Qarabağda Topxana meşəsinin qırılması 1988-ci ilin anti-sovet mitinqlərinin alovlanmasına səbəb oldu və beləliklə, 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başladı. Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi. Topxananın heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olub. İşğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyıblar. Təxmini məlumatlara görə, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağacları qırılaraq tikinti işlərində istifadə edilib. 28 il 7 ay ərzində işğal altında qalmış Topxana meşəsi demək olar ki, dağıdılmış, bitki örtüyü, heyvanat aləmi məhv edilmişdir. Erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlardan biri hələ sovetlər birliyində yaşadığımız illərdə Ermənistan tərəfindən Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# BEYNƏLXALQ SÜLH VƏ RİFAH MARŞRUTU!

***Dünən axşam ABŞ-da olduqca tarixi proseslər baş tutdu. Amma gəlin görüş ərəfəsində baş verənlərə, deyilən fikirlərə xronoloji olaraq nəzər salaq. Bu tarixi görüşdən əvvəl ABŞ lideri Donald Tramp bildirmişdi ki, Ermənistan və Azərbaycan tərəfi Ağ Evdə sülh sazişi imzalayacaq. Avqustun 8-də Ağ Evdə Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanacağını Amerika lideri özünün "Truth Social" sosial şəbəkəsində yazmışdı.***






Onun sözlərinə görə, Vaşinqton İrəvan və Bakı ilə uzunmüddətli danışıqlar aparıb və indi Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-da keçiriləcək sülh sammitində iştirak edəcək.

"Mən bu cəsarətli liderlərlə fəxr edirəm ki, Ermənistan və Azərbaycanın böyük xalqı üçün düzgün seçimlər etdilər", deyə Donald Tramp yazıb. ABŞ prezidenti hətta bu günün tarixi bir gün olacağını qeyd edib. O, həmçinin xüsusilə qeyd edib ki, "iqtisadi imkanları birgə inkişaf etdirmək" üçün ABŞ tərəflərin hər biri ilə ikitərəfli sazişlər imzalayacaq. Görünür elə buna görə də Amerika lideri məhz beynəlxalq sülh və rifah marşrutu qənaətindədir və buna əmin olması da bu səbəbdən başadüşüləndir.

Diqqətə çatdıraq ki, artıq avqustun 7-də "Reuters" ölkələrin sülhə dair çərçivə sazişi imzalamağa razılaşdığını bildirib. Bu nəşrin timsalında bir sıra dünyaca məşhur mətbuat səhifələrinin məlumatına görə, sənəd Azərbaycanın əsas ərazisilə onun Türkiyə ilə həmsərhəd olan Naxçıvan arasında tranzit məsələsinin həllini nəzərdə tutur. Deməli, mahiyyət etibarı ilə məhz dəhliz məsələsi dünya ictimaiyyətinin heç də diqqətindən yayınmayıb. Heç Donald Tramp özü də bununla bağlı nəyi isə unutmaq niyyətində olmayıbmış. Çünki, dəhliz məsələsinin mütləş şəkildə olacağına bütün dünyanın belə zərrə qədər də şübhəsi yoxdur.

Məsələ burasındadır ki, əsas element, əsas şərt olaraq, Ermənistan ərazisindən keçməklə TRIPP (Trump Route for International Peace and Prosperity) adlandırılan, tərcümədə Beynəlxalq Sülh və Rifah üçün Tramp marşrutu kimi başa düşülən nəqliyyat dəhlizinin yaradılması nəzərdə tutulmaqdadır. Layihəyə əsasən, dəhliz ilk baxışdan Ermənistanın yurisdiksiyası çərçivəsində fəaliyyət göstərəcək kimi görünə bilər, lakin infrastrukturun yaradılması və idarə olunması üçün Amerika konsorsiumuna subicarəyə veriləcəyi bildirilirsə, deməli, yenə də Azərbaycanın maraqlarına uyğun olacağı gözlənilir.

İstənilən halda, Azərbaycan qalib ölkədir və ölkəmizin maraqlarına uyğun olmayan məqamlar rəsmi Bakı üçün qəbul edilən sayılmır. Xüsusilə qeyd etmək lazımdır ki, bu məqamı elə ABŞ tərəfi də, məhz Donald Trampın özü də yaxşı başa düşür. Hətta istər-istəməz qəbul da edir. Belə olan halda, hansısa uyğun olmayan, milli maraqlarımıza düz gəlməyən danışıqlardan söhbət belə gedə bilməz. Azərbaycan üçün istənilən platformada, istənilən məkanda olan danışıqlar yalnız öz maraqları daxilində ola bilər.

Diqqətə çatdırmaq yerinə düşərdi ki, rəsmi Bakı hər zaman sülh, əmin-amanlıq və rifah tərəfdarı olub. Bütün dövrlərdə ölkəmiz məhz sülhün, rifahın tərəfində olduğunu bəyan edib. Hər zaman olduğu kimi, hətta müharibə bitdikdən sonra da, öz ərazilərini işğaldan azad etdikdən, qalib olduqdan sonra da Azərbaycan məhz eyni şəkildə, eyni ənənə, eyni yanaşma ilə çıxış edib. Hər zaman bəyan etmişik ki, biz sülhün tərəfdarıyıq. Bəyan etmişik ki, biz əmin-amanlığın, rifahın yüksək olmasına çalışırıq. Deməli, hazırda ABŞ lideri Donald Trampın məhz beynəlxalq sülh və rifah marşrutu kimi bəyan etdiyi lap əvvəldən Azərbaycanın qarşıya qoyduğu məsələ olub və bu gün Amerika tərəfinin, həmin ölkə liderinin məhz bu nöqteyi-nəzərdən çıxış etməsi təsadüfi deyil.

Sözsüz ki, prezidentlər arasında yüksəksəviyyəli danışıqlarda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsi, enerji və nəqliyyat layihələri üzrə strateji tərəfdaşlığın möhkəmləndirilməsi kimi məsələlərin müzakirə olunacağı gözlənilir. Bu fonda məhz səfər çərçivəsində Azərbaycanla Ermənistan arasında davam edən sülh gündəliyinin müzakirəsi də diqqət mərkəzindədir. Son zamanlar Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlərin təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənmədiyini, eyni zamanda, keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlməkdə olduğunu nəzərə alsaq, müzakirələrdən nikbin gözləntilər tamamilə məntiqidir. Hər halda, cənab İlham Əliyev və Tramp arasında olan telefon danışıqları və məktublar da bu məntiqin əsaslı olduğunu təsdiqləyir. Unutmaq lazım deyil ki, Donald Tramp sələfi Baydendən fərqli olaraq, cənab Prezident İlham Əliyevin liderliyi ilə irəli sürülən konstruktiv təşəbbüslərə özünün dəstəyi ilə seçilir.

Etiraf edək ki, Amerika lideri Donald Tramp Cənubi Qafqazda gedən proseslərdə fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana dəstək göstərmək niyyətində olduğunu ən azından bəyan edir. Sözsüz ki, ABŞ liderinin vasitəçiliyi təkcə Azərbaycanla Ermənistan arasında sabitliyə deyil, eyni zamanda regional əməkdaşlığın formalaşmasına da xidmət edir. Bunları nəzərə alsaq, Trampın təşəbbüsləri Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində tarixi rol oynaya bilər. Xüsusən də, cənab İlham Əliyevin Vaşinqtona səfərinin məhz Azərbaycan diplomatiyasının yeni zirvəyə yüksəldiyi bir məqam kimi tarixə düşəcəyinə zərrə qədər də şübhə ola bilməz.

***İnam Hacıyev***

# "Qarabağa qayıdış artıq gerçəkdir"



*"Böyük Qayıdış Vətən müharibəsindən sonra Azərbaycanın qarşısında duran əsas reallıq və strateji hədəflərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.Onun sözlərinə görə, bu proses artıq dövlət səviyyəsində qəbul olunmuş xüsusi proqram əsasında həyata keçirilir: "Azərbaycanın Böyük Qayıdış siyasətinə yanaşması həm real, həm də uzunmüddətli perspektivləri özündə birləşdirir.*



Hazırda bu prosesin əsas mahiyyəti işğaldan azad edilmiş ərazilərə, yəni Şərqi Zəngəzur və Qarabağ bölgəsinə, vaxtilə Ermənistan tərəfindən doğma yurdlarından qovulmuş vətəndaşlarımızın geri qaytarılmasını təmin etməkdən ibarətdir. Bu insanlar dövlətin dəstəyi və təşkilatçılığı ilə mərhələli şəkildə kəndlərə, qəsəbələrə köçürülür. Artıq təxminən 50 min vətəndaş doğma torpaqlarına qayıdaraq normal yaşayış şəraiti ilə təmin edilib. Gözləntilərə görə, bu rəqəm 2030-cu ilə qədər 100 mindən artıq insana çatacaq.Qayıdışla paralel olaraq bölgədə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Ermənistanın dağıtdığı şəhər və kənd infrastrukturu, kommunal sistemlər, yollar və ictimai obyektlər mərhələli şəkildə yenidən qurulur. Həmçinin, bölgədə müasir texnologiyalara əsaslanan yaşıl enerji layihələri həyata keçirilir, yeni elektrik stansiyaları istifadəyə verilir, ekoloji baxımdan təmiz enerji mənbələrinin inkişafı təşviq olunur.Bu təşəbbüslər yalnız iqtisadi və sosial dirçəlişlə məhdudlaşmır. Eyni zamanda, Azərbaycanın deportasiya olunmuş vətəndaşlarının hüquqlarının bərpası və beynəlxalq ictimaiyyətə bu prosesin insan hüquqları kontekstində təqdim edilməsi istiqamətində də ciddi diplomatik fəaliyyətlər aparılır. Ermənistan bu qayıdışı ərazi iddiası kimi təqdim etməyə çalışsa da, Azərbaycan tərəfi bunu sırf insan hüquqlarının bərpası çərçivəsində təqdim edir və beynəlxalq aləmdə bu mövqe getdikcə daha çox qəbul olunur.Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ artıq dünya ictimaiyyəti tərəfindən də tanınmağa başlanıb. Dövlətin həyata keçirdiyi "Böyük Qayıdış" proqramı həm işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası, həm də on illər öncə qovulmuş soydaşlarımızın hüquqlarının qorunması baxımından mühüm nəticələr verməkdədir. Bu proses Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası yolunda atdığı ən mühüm addımlardan biri kimi dəyərləndirilə bilər".




**G. Fərzəliyeva**

## "2027-ci ildə elektrikli hava taksiləri istifadəyə verilə bilər"




"Yaponiyanın aparıcı hava yolu şirkəti All Nippon Airways (ANA) və ABŞ-ın Kaliforniya ştatında yerləşən Joby Aviation texnologiya startapı, 2027-ci ildən etibarən Yaponiyada elektriklə işləyən hava taksilərinin istifadəyə verilməsi üçün ortaq layihə həyata keçirməyi planlaşdırır".SİA xarici KİV-ə istinadən xəbər verir ki, tərəflər beş nəfərlik elektrikli hava taksilərindən ibarət 100-dən çox nəqliyyat vasitəsinin istifadəyə verilməsi məqsədilə birgə müəssisə yaradacaqlarını açıqlayıblar. ANA-nın prezidenti və baş direktoru Koji Şibata bu layihənin "hava nəqliyyatında inqilab yaradacağını" bildirib.

Layihə çərçivəsində saatda 320 kilometr sürət yığa bilən, bir pilot və dörd sərnişin daşımaq imkanına malik elektrikli hava taksilərinin ilk olaraq Narita və Haneda hava limanları ilə Tokio şəhər mərkəzi arasında fəaliyyətə başlaması nəzərdə tutulur. Gələcəkdə isə uçuş marşrutlarının genişləndirilməsi və digər bölgələri də əhatə etməsi planlaşdırılır.

**Günel Fərzəliyeva**



## Qoy gözümüzü telefon yox, kitab "kor" etsin

**Mətanət Məmmədova**

### *9 avqust-Beynəlxalq Kitabsevərlər Günüdür. Yenə eyni həyəcan, yeni eyni əndişə ilə soruşuram: kitab oxuyuruqmu? Həmişə olduğu kimi, bu əlamətdar gündə də deyirəm: gəlin, kitab oxuyaq!*

Bəzən kitab oxuduğumuz o illərin unudulmaz günlərini elə həsrətlə xatırlayıram ki... Nə qədər kitab oxuyurduq, İlahi?.. Günlərimiz kitabxanalarda keçirdi. İki gündən, üç gündən bir kitab alıb evə gətirirdik. Bizə hansısa bir iş tapşıran valideynlərimizdən oğurlanıb mütaliə edirdik. Dərsimizi hazırladıqmı, işimiz gizlində-aşkarda, orada-burada ancaq kitab oxumaq olurdu. Kitablar da o qədər maraqlı idi ki, bitirmədən gözümüzə yuxu getmirdi. Dəfələrlə "ay bala, o işığı söndürün, yatın, ta gecdir",-deyən ata-anamıza hər dəfə "yaxşı, indicə söndürürük",-deyərək gecə yarısı kitabı bitirib, sabah yenə kitabxanaya gedir, yeni kitablar alırdıq. Desəm ki, kitabxanalarda oxunmamış kitab qoymamışdıq qala, bəlkə də inanan az olar, lakin bu, həqiqətən də belə idi.

Biz gözümüzü kitabdan ayırmırdıq, indi isə gözlər telefondan ayrılmır. Bizə "ay bala, bu qədər kitab gözlərinizi kor edəcək" deyirdilər, indi isə uşaq, yeniyetmə və gənclərə "ay bala, bu telefonlar gözünüzü kor edəcək" deyirlər. O vaxt əksər adam başı aşağı kitab oxuyurdu, indi haradayıqsa- evdə, küçədə, nəqliyyatda, orada əksəriyyətin başı aşağı, gözü telefondadır. Görəsən günün bu qədər saatını insanlar orada nə axtarır? Axşamadək barmaqlar bir saniyə dincəlmir: axtarır, yazır, pozur... Bircə onu bilirəm ki, barmaqlar nə qədər işləyirsə, beyin bir o qədər yorğun düşür. Lakin kitab oxuyarkən beyin dincəlir, zehin açılır.

Hər dəfə metroda başı aşağı, gözü telefonda olan bütün yaş qruplarından insanları müşahidə edərkən başı aşağı kitab oxuduğumuz o illəri xatırlayıram. Özözlüyümdə xeyli müqayisə apararam. O vaxtlar elə bu metroda da kitab oxuyanlar çox idi. Nə oldu görəsən, niyə kitablar qatlanıb bir kənara atıldı, telefonların güdazına getdi? Bir andaca kitabların o möhtəşəm ətri gəlir burnuma. Harada qaldığımızı bəlli etmək üçün qatladığımız səhifələr... Saxlanc yerimiz olan səhifələr... Orada saxladığımız şəkillər, quruyub səhifələrin arasında özünə yer edən xatirə dolu güllər... Bəlkə indi də hansısa kitabxanada kitabların arasındaca qalır onlar. Kitabxanalarda digər "yaşayanlar" kimi.

Artıq insanlar uzun illərdir, kitabxanalardan ayağını kəsib. Çünki telefon kitabxananın yolunu kəsib, kitabların ətrini özünə çəkib. İndi kitab, müəllif, kitabxana yalnız belə əlamətdar günlərdə, həftələrdə anılır. Onu da xatırlayan olarsa...

Görəsən niyə kitabları telefonlara dəyişdik? Telefonlar məgər o kitablar kimi saxlanc yeri ola biləcəkmi? Yəni içindəki minlərlə şəkli, xatirələri əbədi saxlaya biləcəkmi? Yoxsa bir an internet itərsə, şəkillər də, xatirələr də itəcəkdir. Ən əsası isə görəsən kitabların insana verdiklərini 100 il bundan sonra telefonlar verə bilərmi?

Kitabları telefona, sosial şəbəkələrə dəyişmişik. Tiktok bizim üçün kitablardan dəfələrlə sevimli olub indi. Əxlaqi dəyərləri aşılayan kitablar onu əlimizdən alan Tiktokun kölgəsində qalıb. Bizi qalmaqaldan uzaqlaşdıran, özü ilə baş-başa saxlayıb bütün dünyanı gəzdirən, yaxşını-pisi ayırd etməyi öyrədən kitabları indi qeybət yeri olan Votsapla, İnstaqramla dəyişmişik. Kitab oxumaq əvəzinə, qalmışıq Votsapda, birbirimizə geyimimizi, acdığımız süfrələri, gəzdiyimiz yerləri göstəririk. İnstaqramda özünü reklam edən kosmetoloq "həkimlərin" Allah-təalanın verdiyi əzaları dəyişməsini, Yaradana qarşı çıxmasını izləyir və alqışlayırıq. Biz də dəyişmək istəyirik. Necə ki, kitabı telefona dəyişmişik...

Gəlin, dəyişməyək kitabı heç nəyə. Kitab oxuyaq! Qoy gözümüzü telefon yox, kitab "kor" etsin.



# Yeni strategiya növbəti uğurlar vəd edir

**_Bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycan dünya miqyasında özünəməxsus mövqelərə malikdir. Yəni dövlətimizə dəyər verilir, hörmət göstərilir. Hər bir beynəlxalq miqyaslı konfranslarda, seminarda Azərbaycanın irəli sürdüyü ideya və təkliflər mübahisələr yaratmadan qəbul edilir. Bunun da səbəbi aparılan dövlət siyasətinin düzgün, əsaslı və milli maraqlara söykənməsidir. Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilməsi Azərbaycanın gücünə yeni güc qatıb, iqtisadi, siyasi, diplomatik uğurlarını daha da artırıb._**

TƏHLİL

Birmənalı mövqe və ortada olan fakt ondan ibarətdir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsi xalqla görüşündə verdiyi vədlərin hamısını zərrə qədər də olsun qüsurlara yol verilmədən yerinə yetirib. Qələbələrin, əldə olunan zirvələrin ən yüksək nöqtəsi isə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın 44 günlük Vətən Müharibəsi ilə azad edilməsi oldu. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu illər ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb. Regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tarixi çıxışlarının birində bununla bağlı demişdir: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

## Dayanıqlı və davamlı iqtisadi inkişaf

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, tarix yazan lider olduğunu nümayiş etdirdi. Bu gün bütün dünya Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır. 20 il bundan əvvəl prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Azərbaycan Ordusu 2016-cı ilin dörd günlük Aprel döyüşlərində düşmənə, təcavüzkar və işğalçı Ermənistana sözün əsl mənasında dərs keçdi, "güclü erməni ordusu" mifini darmadağın etdi.Bunun üstündən cəmi iki il keçəndən sonra, 2018-ci ilin yayında Azərbaycan Ordusu bu dəfə Naxçıvan istiqamətində düşmənə böyük, sarsıdıcı zərbə vurdu, tarixi Günnüt əməliyyatı ilə düşməni çox əhəmiyyətli, strateji mövqelərdən, yüksəkliklərdən geri çəkilməyə məcbur etdi. Aprel döyüşlərində dastan yazan Azərbaycan Ordusu Günnüt əməliyyatında bir daha düşmənə, işğalçı Ermənistana öz gücünü, qətiyyətini, əzmini nümayiş etdirdi. Bir daha göstərdi ki, Qarabağ məsələsində güzəşt mövqeyi olmayacaq, bir qarış torpaq belə düşmənə verilməyəcək.

2020-ci il sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq.

## İnamla və qətiyyətlə davam etdirilən siyasət

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimiz Heydər Əliyevin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəferidir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev üçrəngli Bayrağımızı ucaltdı.Bununla da bir daha ərazi bütövlüyümüzü və suverenliyimizin ən yüksək səviyyədə təmin olunduğu nümayiş etdirildi.

Bir sözlə, milli və dövlətçilik maraqlarına söykənən nailiyyətlər bir daha təsdiq edir ki, Azərbaycan dövlətində aparılan siyasət düzgün və müdrik siyasətdir. Bu siyasətin isə alternativi yoxdur. Qələbələr, zəfərlərə söykənən siyasətin əsasının qoyulmasına və bu siyasətin düzgün formada həyata keçirilməsinə görə, Ulu Öndərimiz Heydər Əliyevə və Onun layiqli siyasi varisi, Ölkə Prezidenti İlham Əliyevə minnətdarıq.

**İLHAM ƏLİYEV**

***Ermənistan və Azərbaycan liderləri sülh üçün Vaşinqtonda mühüm, tarixi addım atdılar. Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan ABŞ prezidenti Donald Trampın təşəbbüsü ilə onsuz da hazır olan sülh müqaviləsinin imzalanma prosesini yaxınlaşdırmaq məqsədi ilə okeanın o tayına səfər etdilər və tarixi nəticəyə imza atdılar.***



# Ağ Evdə Bakı vaxtı!

## *Vaşinqtonda Ermənistanla Azərbaycan arasında tarixi sülh danışıqları*

ANALİTİK

Buna qədər Azərbaycan Prezidentinin birbaşa rəhbərliyi altında iki ölkə arasında sülhün bərqərar olması üçün kifayət qədər geniş və fundamental işlər görülüb. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin 25 ildə edə bilmədiklərini edən Azərbaycan beynəlxalq sənədlərə istinad edərək öz torpaqlarını işğaldan azad etməklə yanaşı, həm də müharibədə ədalətli davrandı, sülh naminə fürsətçil olmadı, imkan varkən işğalçı ölkənin torpaqlarına toxunmadı. Zəifləmiş Ermənistana imkan verdi ki, ağır məğlubiyyətdən sonra danışıqlar masasına qədər gələ bilsin. Hadisələrin indiki mənzərəsi də onu göstərir ki, qələbəni təkcə hərb meydanında yox, həm də masada – danışıqlarda qazanmaq olar.

Gəlin tarixi Vaşinqton görüşü ərəfəsində yaşanan prosesləri, fikir və proqnozları nəzərdən keçirək. Ermənistanla Azərbaycan arasında sülh sazişi region üçün əlamətdar hadisəyə çevrilə bilər ki, bu da Cənubi Qafqazda qüvvələr balansını dəyişəcək. Reuters agentliyinin yazdığı kimi, bu saziş iki ölkə arasında uzun müddətdir davam edən münaqişənin həlli yolunu təmin etmək və regionda sabitliyi təşviq etmək məqsədi daşıyır. Sənədin mərkəzi elementlərindən biri Ermənistan ərazisindən keçməklə Naxçıvan eksklavını Azərbaycanın qalan ərazisi ilə birləşdirəcək dəhlizin yaradılması olacaq. Bu marşrutun inkişafı və nəzarətinin müstəsna olaraq ABŞ-ın yurisdiksiyasında olacağı gözlənilir. Yola "Beynəlxalq Sülh və Rifah üçün "Tramp Route"" (TRIPP) simvolik adı veriləcək. Marşrut Ermənistan qanunvericiliyi çərçivəsində fəaliyyət göstərəcək, ABŞ isə layihənin həyata keçirilməsi hüquqlarını lazımi infrastrukturu quracaq və onu idarə edəcək beynəlxalq konsorsiuma subicarəyə verəcək. Sülh sazişinin imzalanması çərçivəsində Ermənistan və Azərbaycan liderləri "Qarabağ münaqişəsinin həllində vasitəçilik etmək üçün 1999-cu ildə yaradılmış ATƏT-in Minsk qrupu"nun buraxılması ilə bağlı rəsmi müraciət də etməyi planlaşdırırlar. Bu qrupa Fransa, Rusiya və ABŞ başçılıq edirdi. Amerikalı nümayəndələr belə bir fikir bildirirlər ki, sazişin Vaşinqtonda bağlanması Azərbaycanın Donald Tramp administrasiyası tərəfindən irəli sürülən İsraillə bir sıra müsəlman ölkələri arasında münasibətlərin normallaşdırılmasına yönəlmiş təşəbbüs olan "İbrahim sazişləri"nə qoşulmasına yol aça bilər.

Xatırladaq ki, Rusiya təbliğatçıları prezident İlham Əliyevin Ukraynaya dəstək bəyanatından sonra açıq şəkildə Azərbaycanı müharibə ilə hədələməyə başlayıblar. Azərbaycan lideri çıxışında ukraynalıları "heç vaxt təslim olmamağa", "işğalla razılaşmamağa", "ərazi bütövlüyünün pozulmasına dözməməyə" çağırıb.

### Tramp sülh sazişinin imzalanacağına çox inanır

Ağ Evin rəhbəri çoxdan gözlənilən sülhə nail olmaq məqsədi ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri ilə görüşəcəyini bəyan etmişdi. ABŞ prezidenti Donald Tramp bu barədə "Truth" sosial şəbəkəsində məlumat verib. Onun sözlərinə görə, o, hər iki ölkə liderlərinin "çərçivə sülh sazişi"nə həsr olunmuş mərasimi səbirsizliklə gözləyir. O qeyd edib ki, Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla çoxdan gözlənilən sülhə nail olmaq məqsədi daşıyan tarixi görüşdə iştirak edəcək. Amerika prezidenti onu da vurğulayıb ki, bu ölkələr arasında münaqişə uzun illərdir davam edib, minlərlə insanın həyatına son qoyub. İndiyə qədər müharibəni bitirmək üçün bir çox beynəlxalq cəhdlər uğursuz olub. Tramp xatırladıb ki, onun administrasiyası hər iki tərəflə uzun müddət danışıqlar aparıb. Ağ Evdə keçiriləcək rəsmi mərasimdə Azərbaycan və Ermənistan başçıları müharibəyə son qoymalı olan saziş imzalayacaqlar. Bundan əlavə, ABŞ hər iki ölkə ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəlmiş ikitərəfli sazişlər bağlayacaq. ABŞ prezidenti əmin olduğunu bildirib ki, bu addımlar Cənubi Qafqaz regionunun tam potensialına töhfə verir. "Bu, Ermənistan, Azərbaycan, ABŞ və dünya üçün tarixi gün olacaq", - Tramp vurğulayıb.

### Rubio nəyə ümid edir?

ABŞ dövlət katibi Marko Rubio da dünən görüş ərəfəsində Azərbaycan və Ermənistan arasında sazişin imzalanmasına və sülh sazişinin başlanmasına ümid etdiyini bəyan etmişdi. "Daha geniş sülh mövzusunda prezident sülhə sadiqdir və sülhün prezidenti olmağa çalışır. Azərbaycan və Ermənistan, ümid edirik ki, bu baş verəcək", - Rubio The Eternal Word Television Network (EWTN) jurnalistinə müsahibəsində bildirib. "Biz bunu bu gün burada qeyd edirik, lakin bu cümə günü müqaviləni imzalamaq və sülh sazişinə başlamaq üçün burada olacağıq", deyə Rubio vurğulayıb.

### Axios: Ermənistan razılaşıb

Ermənistan uzun sürən danışıqlardan sonra Azərbaycanla ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə Ağ Evdə imzalanacaq sülh sazişi çərçivəsində öz ərazisindən keçən avtomobil yolunu açıb ABŞ-a verməyə razılaşıb. Bu barədə "Axios" Ağ Evdəki mənbələrə istinadən xəbər verir. Gələcək marşrutun uzunluğu 43,5 km-dir.

"Beynəlxalq Sülh və Rifah üçün "Tramp marşrutu"" (TRIPP) adlanacaq layihə Azərbaycanın əsas hissəsini Türkiyə ilə sərhəddəki kiçik eksklavı ilə birləşdirəcək. ABŞ dəhlizi inkişaf etdirəcək. Marşrut insanların və yüklərin İran və Rusiyadan yan keçməklə Türkiyə ilə Azərbaycan arasında, eləcə də daha da Orta Asiyaya daşınmasına imkan verəcək. Tehran artıq layihəyə kəskin etirazını bəyan edib, Moskva da onu tənqid edib. Türkiyə isə əksinə, fəal şəkildə dəstəkləyib. Razılaşma İrəvanın dəhliz ideyasına qarşı əvvəlki müqavimətindən əl çəkdikdən sonra mümkün olub. Axios-un fikrincə, Vaşinqton baş nazir Nikol Paşinyanı inandırıb ki, bu, Ermənistanı yeni ticarət imkanlarına açacaq və gələcəkdə Bakıdan gələcək təhdidlər zamanı ABŞ-ın dəstəyini təmin edəcək.

CBS News və The Guardian-ın məlumatına görə, saziş Ermənistan və Azərbaycan liderləri arasında imzalanmış ilk saziş olacaq və ABŞ dəhlizin tikintisini büdcədən maliyyələşdirmədən onun inkişafı hüququnu alacaq - işləri özəl korporasiyalar həyata keçirəcək. Marşrut nəhayət, dəmir yolu, neft və qaz kəmərləri və kommunikasiya xətlərini əhatə etməlidir ki, bu da İrəvana Qərbə çıxış imkanı verəcək və 1990-cı illərin əvvəllərindən bağlanmış nəqliyyat marşrutlarını açacaq. CBS News-un məlumatına görə, sövdələşmə Azərbaycanın gələcəkdə İbrahim razılaşmalarına mümkün qoşulması üçün ilkin şərt hesab olunur. Görüş avqustun 8-i, Bakı vaxtı ilə saat 22:30-a təyin edilib. İmzalanma mərasimində Paşinyan, Azərbaycan Prezidenti İlham Əliyev və Donald Tramp iştirak edəcək və onlar qarşıdakı görüşü "tarixi sülh sammiti" adlandıracaqlar.

### "Ermənistan hakimiyyəti sadəcə gözləyir"

"Ermənistanda gözlənilən hadisələr müxtəlif tərəflərdən informasiya sızması, müsahibələr və şərhlər vasitəsilə müzakirə olunur, lakin hakimiyyət ölümcül sükutunu davam etdirir", Ermənistan Milli Assambleyasının "Mənim şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan yazır. "Bu, yəqin ki, "kiminsə gözlərini bağlayaraq ABŞ-a aparıblar, zirzəmiyə salıblar, başına silah keçiriblər və sənədləri imzalamağa məcbur ediblər" iddiaları ilə yayılacaq növbəti hesabatlara hazırlıqdır. Yeganə fərq ondadır ki, 2020-ci ildə üçüncü tərəf Moskva idi, indi isə Vaşinqtondur. Geosiyasi mərkəzlər öz məsələlərini həll edir, regionda rolların yeni bölgüsü baş verir və Ermənistan hakimiyyəti sadəcə onların başına nə gələcəyini gözləyir", - Abrahamyan qeyd edib.

### Zatulin: "Müqavilə Ermənistan üçün zərərli olacaq"

"Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan prezidenti İlham Əliyev arasında ABŞ-da keçiriləcək görüş üçün nəzərdə tutulan razılaşmalar İrəvanın maraqlarına cavab vermir". Bunu rusiyalı məşhur deputat, daha çox anti-Azərbaycan meylləri ilə tanınan Konstantin Zatulin Bakı ilə İrəvan arasında hazırlanan sülh müqaviləsinin şərtlərini şərh edərkən deyib.

Qeyd edək ki, bundan əvvəl KİV-lər Bakı ilə İrəvan arasında sülh müqaviləsi çərçivəsində ABŞ-ın Azərbaycanın əsas hissəsini Naxçıvandakı anklavı ilə birləşdirən 40 kilometrlik nəqliyyat dəhlizi olan Zəngəzur dəhlizinə nəzarətin özəl şirkətə verilməsini təklif etdiyi barədə məlumat yayıb. "Əlbəttə, söhbət şəxsən Paşinyandan getməsə, bu, heç bir halda Ermənistan üçün faydalı ola bilməz, çünki o, milli maraqlar baxımından düşünmür", - deputat bildirib. "O, milli maraqlardan imtina edərək Ermənistanı və özünü Qərb dünyasına inteqrasiya etməyə çalışır. Bu, şübhəsiz ki, Azərbaycan və Türkiyənin maraqlarına uyğundur".

### "Hər şey Ermənistanın maraqları deyil"

"Dolğun informasiya olmadığı halda erməni məkanı Azərbaycan tezisləri və gündəmi ilə doludur. Ermənistan hakimiyyəti bu gün Vaşinqtonda Azərbaycanla imzalanmış sənədin təfərrüatlarını diqqətlə gizlədir və bununla da cəmiyyətdə informasiya xaosuna yol açır". Bunu keçmiş ombudsman Arman Tatoyan sosial şəbəkələrdə yazır. O, hesab edir ki, bunun əvəzinə hökumətyönlü təbliğat hamını narahat edən məsələləri dilə gətirməyə çalışanların hamısını "antiamerikan" və ya "rusofil" kimi qələmə verir. Eyni zamanda, hakimiyyət həyati vacib məsələlərdə öz mövqeyini daim dəyişir, "qırmızı xətlər" cizgiləri çəkir, lakin sonradan bu xətlərdən imtina edir. Tatoyan qeyd edir ki, belə qeyri-müəyyənlik şəraitində informasiya sahəsi Azərbaycan tezisləri ilə doludur. Azərbaycanın niyyət və planlarının məqsədyönlü təbliğatı aparılır.

### Ermənistan-Azərbaycan sazişi və Rusiya

"İndi Ermənistan və Azərbaycan sülh sazişi imzalamaq və əməkdaşlıq etmək ərəfəsindədirlər ki, bu dəhliz vasitəsilə Mərkəzi Asiyadan kritik neft, təbii qaz və həyati vacib mineralları tədarükünü Rusiyadan yan keçməklə Avropaya və Qərbə çatdırsınlar. Beləliklə, bu kritik bir məqamdır". Bunu ABŞ senatoru Stiv Deyns deyib. "May ayında orada oldum, Azərbaycan Prezidenti Əliyevlə görüşdüm, sonra Ermənistana getdim və baş nazir Paşinyanla görüşdüm. Onlar bu sülh müqaviləsini bağlamaq ərəfəsindədirlər. Həm Vaşinqtona gələcəklər, həm də prezident Trampla bu müqaviləni bağlayacaqlar. Təkcə ABŞ-a deyil, Qərbə də mühüm dividendlər gətirəcək "İbrahim razılaşmaları" da var və təbii ki, ruslar və iranlılar bundan məmnun deyil", o qeyd edib.

**V.VƏLİYEV**

# Qlobal istiləşmə bəşəriyyət üçün təhlükə yarada bilər

*Bu gün dünyada istiləşmə həddinin son 10-15 illə müqayisədə iki, bəzi ərazilərdə 3 selsi artdığı müşahidə olunur. Bu da təxminən 2 milyard insanın həyati əhəmiyyət daşıyan su ehtiyatlarının itirilməsi deməkdir. Science jurnalında dərc olunan araşdırmada 200 min fərqli buzlağın iqlimdən necə zərər gördüyü detallı formada izah edildikdən sonra istiləşməni 1,5 dərəcəyədək endirməyi hədəfləyən Paris razılaşmasına əməl edilsə belə, mövcud buzlaqların yarısı itiriləcəyi ehtimal olunur.*



Təbii ki, qlobal istiləşmə təkcə təbiətə deyil, həm də heyvanat aləminə, hətta insanlar üçün ciddi fəsadlar törədir. Əvvəllər iqlim və hava bəşəriyyətə birbaşa təsir göstərirdi. Hər şey onlardan asılı idi. İnsanlar harada və necə yaşayacaqlarını özləri müəyyənləşdirirdi. Ancaq indi insanlar özləri iqlimə təsir edirlər. Bu da bəzən həlli mümkün olmayan problemlərə, hətta meşə yanğınların baş verməsinə, canlı aləmin sıradan çıxmasına gətirib çıxarır. Araşdırmalara görə, dünyamız insanların müdaxiləsi nəticəsində indiki sürətlə istiləşməyə davam edərsə, 2100-cü ilə qədər bütün dağ buzlaqlarının 68 faizi əriyəcək.





Dünyanın müxtəlif ölkələrində sürətlə meşə yanğınlarının baş verməsi, dənizdə və quruda canlı aləmin sıradan çıxması məhz insanların təbiətə, xüsusilə də iqlimə təsir etmələrindən irəli gəlir. Qlobala istiləşmə fonunda dəniz və çaylar qurumaqla yanaşı, quru sahələrdə meşələr sürətlə yanğınlara məruz qalır. Ən narahatedici hal ondan ibarətdir ki, yanğınların neytirallaşdılmasında ciddi problemlər baş verir. Nəticədə təbiət, torpaq örtüyü, bitki aləmi, ağaclar, heyvanlar, eləcə də insanlar çox ciddi zərər görürlər. Son illər ən çox meşə yanğınları Avstraliya, Türkiyə, Yunanıstan, ABŞ, Rusiya və Kanada ölkələrdə baş verib, Ümumilikdə son 10 il ərzində dünyada 82 milyon hektar meşə sahəsi yanıb. 2019-cu ilin iyun ayında Avstraliyada baş vermiş meşə yanğınları bir ilə yaxın davam edib. Hesablamaya görə, 10 milyon hektar ərazi yanıb kül olub. 3 minə yaxın ev yanaraq yararsız hala düşmüşdür, 28 nəfər insan ölmüşdür. Bəzən elə hallar yaşanır ki, yanğınları nəzarət altına almaq mümkün olmayır. Daha doğrusu, yanğınların söndürülməsi dövlətlərin müvafiq qurumlarına çətinliklər yaratdığı üçün başqa dövlətlərdən yardımlar istəyirlər.

## Birgə fəaliyyət nəticəsində Türkiyədə yanğınları nəzarət altına almaq mümkün olmuşdu

Dəfələrlə Azərbaycan yaxın uzaq dövlətlərdə baş vermiş yanğınların nəzarət altına alınmasında yaxından iştirak edib. Ötən il Türkiyədə yanğınlar başlayan zaman Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət qrup Türkiyədə tüğyan edən meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə qardaş ölkəyə göndərilmişdir. Ümumilikdə Azərbaycan tərəfindən Türkiyədə baş verən yanğınların söndürülməsi üçün Fövqəladə Hallar Nazirliyinin 500 nəfərdən ibarət şəxsi heyəti, helikopterlər, həmçinin digər lazımi avadanlıq və ləvazimatlar göndərilmişdir. Birgə fəaliyyət nəticəsini vermiş və tüğyan edən meşə yanğınlarını söndürmək mümkün olmuşdur. O zaman Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türkiyədə baş verən yanğınların söndürülməsində göstərdiyi köməyə görə təşəkkür etmişdir. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan xalqa müraciətində Azərbaycana təşəkkür etmişdir: "Bir millət, iki dövlət anlayışı ilə hərəkət etdiyimiz can Azərbaycanımızın prezidenti, əziz qardaşım İlham Əliyevə ürəkdən minnətdarlığımı bildirirəm. İlham qardaşım sadəcə zəng etmədi, həm də ölkəmizə "BE-200" tipli amfibiya yanğınsöndürən təyyarəsini göndərməklə yanğınla mübarizəmizə güclü dəstək verir. Çətin günlərimizdə daim dəstək olduğumuz azərbaycanlı qardaşlarımızla bundan sonra da hər sahədə birliyimizi davam etdirəcəyik".

## İstiləşmə buzlaqların əriməsinə gətirib çıxarır

Son yüz il ərzində planetdə orta temperatur selsi üzrə 3 dərəcə yüksəlib və bu gün ki, araşdırmalara təsdiq edir ki, temperaturun yüksəlməsi davam edir. Qlobal istiləşmə adətən son bir neçə onillikdə planetin səthində temperaturun artması kimi başa düşülür. Planetimiz niyə istiləşir? İnsanlar elektrik enerjisi əldə etmək üçün neft, təbii qaz və kömür yandırırlar. Bu manipulyasiyalar nəticəsində qazlar atmosferə daxil olur: karbon qazı və azot oksidi. Eyni qazlar - onlara istixana qazları deyilir, həmin qazlar müəssisələr tərəfindən, həm də daxili yanma mühərriklərində işləyən nəqliyyat vasitəsi ilə qaz hava səthinə buraxılır. Kənd təsərrüfatı həm də metan mənbəyidir - istilik saxlamaq baxımından karbon qazı ilə rəqabət apara bilən güclü istixana qazıdır. Atılan qazların miqdarının artması istixana effektini artırır - bu, Yer kürəsində temperaturun artmasına səbəb olur.

Planetdə orta temperaturun artması öz növbəsində dəniz səviyyəsinə təsir göstərir: buzlaqlar əriyir, buna görə əlavə su okeana daxil olur.

Bundan əlavə, okean, təbii ki, quru ilə birlikdə isinir. Və isti suyun həcmi, bildiyimiz kimi, soyuqdan daha böyükdür. Beləliklə, son 100 ildə dəniz səviyyəsi təxminən 20 sm qalxıb. Alimlərin araşdırmalarına görə, qış temperaturu kəskin şəkildə yüksələ bilər ki, bu da şimal maralları və yerli samiləri üçün fəlakətli nəticələrə səbəb ola bilər.

60 illik təcrübəyə malik maralı çobanı Per Qaup jurnalistlərə bildirib ki, biz artıq qlobal istiləşmənin təsirlərini hiss edirik: "Görürəm ki, iqlim dəyişikliyi səbəbindən daha çox maralı itiririk. Qışı soyuq, quraq keçən kontinental iqlim getdikcə daha aşağı temperatur və yağışlı sahil bölgələrinə çevrilir. İqlim dəyişikliyi qar altında liken və mamırla qidalanan 146.000 şimal maralı üçün otlaq şəraitinə təsir göstərəcək. Heyvanlar ölür, çünki yem azdır, xüsusən də gənc marallar üçün".

Çoban iddia edir ki, Kautokeinoda temperatur həftələrlə müntəzəm olaraq -40°C-ə enirdi. İndiki vaxtda bu, çox nadir hallarda və qısa müddət ərzində baş verir. Şimal maralları üçün daimi problem hazırda ac maralların dırnaqları ilə keçə bilmədiyi qalın buz təbəqələri yaradan daimi alternativ ərimə və donmalardır. Şimal maralları likenlərə və mamırlara çata bilmədikdə, çobanlar başqa otlaqlar axtarırlar. Bu, rəsmi olaraq sərhədi müəyyən edilməmiş otlaqlar üstündə çobanlar arasında münaqişələrə səbəb ola bilər. İqlim dəyişikliyi həm də ildə iki dəfə transhumasiyanı çətinləşdirir".

Beynəlxalq Şimal Maralı Becərmə Mərkəzinin direktoru Anders Oskal bildirib ki, Şimal maralı həmişə dəyişən iqlimdə yaşayıb və onlar təbiətə uyğunlaşmağı öyrəniblər: "Bizim əsas narahatlığımız odur ki, Arktika istiləşdikcə və insan fəaliyyəti artdıqca daha əlçatan olur",

47 yaşlı çoban Mathis Andreas isə qeyd edib ki, biz gəlib həyatımızı, həyat tərzimizi, ənənəvi torpaqlarımızı məhv edən insanları əlimizlə qarşılaya bilmərik.

Araşdırmaya əsasən, XXI əsrin əvvəlindən bəri buzlaqlar 6500 milyard tondan çox kütlə itirib. 2000-2011-ci illər arasında buzlaqlar hər il orta hesabla 231 milyard ton ərimişdirsə, bu göstərici 2012-2023-cü illər arasında 314 milyard tona yüksəlib. 2023-cü ildə isə rekord səviyyədə – 548 milyard ton buzlaq əriyib. Bütün bu sadaladığımız faktlar dünya üçün ciddi iqlim təhlükəsinin reallaşdığını aydın şəkildə ortaya qoyur.

## Qətiyyətli addımlar atılmasa, istiləşmə böyük fəlakətlər yaradacaq

Tədqiqatlar nəticəsində məlum olub ki, son 23 il ərzində təxminən 7 trilyon ton buzlağın əriməsi dəniz səviyyəsini təxminən 2 santimetr qaldırıb. Xüsusilə Alp dağları bu ərimənin ən çox müşahidə olunduğu bölgələrdən birinə çevrilib. Buzlaq kütləsinin azalması milyonlarla insan üçün içməli su təchizatını təhlükə altına qoymaqla yanaşı, dəniz səviyyəsinin yüksəlməsi səbəbindən sahilyanı bölgələrdə daşqın riskini artırır. İqlim problemləri ilə bağlı həyəcan təbili durmadan artır. Son illərdə aparılan elmi araşdırmalar göstərir ki, iqlim dəyişikliyi buzlaqların daha sürətlə əriməsinə səbəb olur. "Nature" jurnalında dərc edilən yeni tədqiqatın nəticələrinə görə, 2000-ci ildən bəri dünya üzrə buzlaqların orta hesabla 5 faizindən çoxu əriyib və bu proses son onilliklərdə daha da sürətlənib.

Söz yox ki, dünyanın heç bir dövləti qlobal istiləşmədən sığortalanmayıb. Temperaturun artmasının qarşısının alınması üçün dövlətlərin müdaxiləsi də mümkünsüzdü. Sadəcə yetər ki, dövlətlər 2015-ci il də qəbul edilən Paris sazişinə əməl etməlidir. Əks halda dünyamızda istiləşmə ciddi fəsadlara yol aça bilər. İstilənmənin nəzarətdən çıxması il susuzluqdan yalnız Afrika ölkələri deyil, həm də Avropa və Asiya dövlətləri də əziyyət çəkəcəklər. Bununla yanaşı, iqlim dəyişikliyi dənli bitkilərin məhsuldarlığını azalmasına gətirib çıxaracaq. Susuz ərazilərin geniş əraziləri əhatə etməsi ilə dünyada bir milyarda yaxın insanın evlərini tərk etməsi ilə üzləşməli olacaqlar. Çünki bu gün faktiki dünyada bir milyarda yaxın insan torpaq erroziyasına meyilli ərazilərdə yaşayırlar. Dünya Bankının hesablamalarına görə, heç bir tədbir görülməsə, 2050-ci ilə qədər Saxara səhrası və onun ətrafında Afrika, Latın Amerikası və Cənubi Asiyada 150 milyondan çox insan öz bölgələri daxilində köç etmək məcburiyyətində qalacaq.

Dünyada iqlim dəyişikliyinin qarşısının alınması beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin olunması qədər önəmlidir. Çünki proseslərin özbaşına buraxılması ilə dünyamız həlli mümkün olmayan problemlərlə üzləşə bilər. Dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar təhlükənin qapı önündə olduğunu anlamalılar. Birgə səylər, bərabər şəkildə mübarizə gözlənilən fəlakətin qarşısını almağa imkan yarada bilər.

**İLHAM ƏLİYEV**

Təhlil

# Məişət zorakılığını gizlədən şəxsləri hansı cəza gözləyir?

***"Məişət zorakılığı dedikdə - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə şəxslərin ( ərin, arvadın, valideynlərin və s.) birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurması başa düşülür". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.***



**Vəkil mühüm detalları açıqladı**

O bildirib ki, məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır: "Cinayət Məcəlləsində birbaşa olaraq göstərilməsə də, məişət zorakılığı ilə bağlı cinayət əməlini və həmin əməllə bağlı cəzanı nəzərdə tutan maddələr mövcuddur. Yəni siz, müvafiq olaraq Cinayət Məcəlləsinin 126-cı (qəsdən sağlamlığa ağır zərər vurma), 127-ci (qəsdən sağlamlığa az ağır zərər vurma), 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma), 133-cü (işgəncə) maddələri ilə cinayət işinin başlanılması barədə Daxili İşlər Nazirliyinin hadisənin törədildiyi yerin ərazisi üzrə polis bölməsinə ərizə ilə müraciət edə bilərsiniz.



Əgər əməldə cinayət tərkibi yoxdursa, lakin inzibati xəta tərkibi varsa bu zaman məişət zorakılığı törətmiş şəxs inzibati qaydada məsuliyyətə cəlb oluna bilər. İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsinə əsasən, döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə - üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur. Bu maddədə nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. Müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir. Məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər.Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Uzunmüddətli mühafizə orderi 30 gündən 180 gün müddətinə verilir. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarının çıxarılması qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlərdən ən təsirlisi məişət zorakılığı ilə bağlı cinayət təqibinin həyata keçirilməsi və məişət zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsidir. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayətə məişət zorakılığından zərər çəkmiş şəxsin (bundan sonra - zərər çəkmiş şəxs) yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanı tərəfindən baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. Məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanılması üçün əsaslar müəyyən edilmədiyi halda, cinayət təqibini həyata keçirən orqan həmin şikayəti zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanına göndərir. Məişət zorakılığı ilə bağlı şikayətə 5 (beş) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. Həmin müddətdə ilkin araşdırma aparılmalı, məişət zorakılığı faktının mövcudluğu aşkar edildikdə, zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görülməli və məişət zorakılığı halının aradan qaldırılması ilə bağlı gələcək fəaliyyət müəyyən edilməlidir. Araşdırma aparmaq üçün əlavə materiallar tələb etmək və ya əlavə xüsusatları öyrənmək lazım gəldiyi hallarda, bu müəyyən edilmiş müddət 5 (beş) gündən çox olmayaraq uzadıla bilər. Məişət zorakılığı ilə bağlı daxil olmuş məlumatda göstərilən halların müəyyən edilməsi məqsədi ilə tərəflər ayrılıqda dinlənilir və müvafiq hallarda dərhal hadisə yerində araşdırma aparılır. Məişət zorakılığı barədə şikayətlərə baxılmasının nəticələrindən asılı olaraq, aşağıdakı qərarlardan biri qəbul olunur: məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə cinayət və inzibati məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi; məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi; əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi; zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi; zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 158.1-ci maddəsinə əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə- yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir".

"Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətdə məişət zorakılığını törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlığın edilməməsi və ya zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməməsinə görə – vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir. Qanunvericilikdə yalnız ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə cinayət məsuliyyətinə səbəb olur: - min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

## Gedin, mövzu axtarın, xəbər yazın, ayıbdır!

***Mediamızın bəzi agentlik, sayt və portalları var ki, görünür, mətbuatdan, onun janrlarından hələ də xəbərləri yoxdur. Ona görə ki, keyfiyyətə yox, kəmiyyətə, "like" jurnalistikasının inkişafına xidmət etməkdədirlər. Qarşılarına nə çıxırsa, ondan xəbər yaradırlar, həm də bir-birini təkrarlaya-təkrarlaya yüzlərlə eyni xəbər. Hara baxırsan eyni xəbər, nə qədər axı. Ta cana doyduq biz.***



Yaxşı, bunu hələ qoyaq bir tərəfə. Bəziləri dirilərdən yazdılar, onları bəxtəvər etdilər, indi qalıb ölülər. Dünən qarşıma bir informasiya agentliyinin xəbəri çıxdı: "Süni intellekt Məhəbbət Kazımova "Laçınım"ı oxutdurdu".

Allah xətrinə, sərlövhəyə diqqət edin. Dünəndən özümə gələ bilmirəm. Ona görə ki, müasir jurnalistika budur? Süni intellekt kimdir və nədir ki, mahnı oxutdura? Bu, jurnalist adını daşıyan şəxsin hansı dərrakə ilə yaza biləcəyi sərlövhə ola bilər?

Birincisi, rəhmətlik Məhəbbət Kazımovun sağlığında bu mahnı istənilən qədər dinlənilib, həm də minlərlə tamaşaçı tərəfindən anşlaqla qarşılanıb. Süni intellektin ona mahnı oxutmasına ehtiyac yoxdur. Həm də hazırda bu mahnının lent yazısını istənilən yerdə, sosial platformalarda dinləmək olar. İkincisi, bu süni intellektdən sosial şəbəkələr kimi düzgün istifadə etməyə-etməyə, çox keçməz, onu da özümüz üçün təhlükəyə çevirərik. Necə ki, sosial şəbəkələrin ağını çıxarıb indi uşaq-yeniyetmə və gənclər üçün təhlükə ocağı yaratmışıq, eləcə də süni intellektin başına elə bir oyun gətirməkdəyik ki, inanın, bu təhlükədən sabah çox zərər görəcəyik. Nə bilim, dostluqlar, rəfiqəliklər, bacı olmaq, qardaşlaşmaq, fotolar canlandırmaq, şəkillər düzəltmək, söhbətlər etmək və sair...

Zəhmət olmasa, süni intellektin Məhəbbət Kazımovu canlandırmasına diqqət edin. Bizim üçün çox dəyərli olan sənətkarı robot halına gətirib, bunu da yaxşı bacara bilməyib. Elə bil şəkil hərdən ağzını açır və susur. Əlindəki çiçəklərə baxın hələ. Bunu kim rəva görüb bizim böyük sənətkara görəsən?

Nə üçün bizi əlimizdə olanlar qane etmir? Kim bu mahnını dinləmək istəyirsə, You tube-da sənətkarın vaxtilə canlı ifa ilə səsləndirdiyi və lentə alınmış versiya var. Ona qulaq asa biləcəyimiz təqdirdə, süni intellektin bu gülünc "oxutmasına" ehtiyac varmı?

Digər tərəfdən bunu xəbər edən agentlik nə düşünür? Yəni bu qədərmi "like" üçün? Vallah, şair demişkən dəli bir ağlamaq keçir könlümdən. Son vaxtlar iki müğənninin biri-birinə xoş gəlməyən sözlərindən, hansısa aparıcının dəbdəbəli evində özünə ad günü keçirməsindən, dünən səhnəyə gələn müğənninin geyindiyi paltar-ayaqqabısının aparıcının gözlərini kəlləsinə çıxaran qiymətindən, sadə bir aparıcının öz dəbdəbəli evinin pəncərəsindən ətrafa baxıb məmnun qalmasından, efirdə uşağının atasının sevgilisi olduğuna utanmaz etiraflardan yaranan xəbərlərlə hər dəfə rastlaşanda onsuz da çox tez-tez dəli bir ağlamaq keçir könlümdən.

Budur, milli mətbuatımızın müasir dövrü? Budur müasir jurnalistika? Budur bizim mediaya verdiyimiz töhfə?

Məncə ağlımızı başımıza yığmalıyıq. 150 il layiqli yol keçib bu dövrə gəlib çıxmamışıq ki, əsr yarımda qazandıqlarımızı əlimizdən asanlıqla verək.

Gedin, əziyyət çəkin, mövzu tapın, xəbər yazın. Rəhmətə getmiş bir müğənnini bu vəziyyətə salan süni intellekt də, onu xəbər edən agentlik də papağını qarşısına qoyub yaxşı-yaxşı fikirləşsin. Süni intellekt bir "intellektini" işə salsın, görsün nə etmək istəyib burada? Hər hansı bir yenilikdirmi bu? Və yaxud bunu xəbər edən agentlik, bir fikirləşsin, görsün bu, xəbər janrının hansı xüsusiyyətinə uyğun gəlir? Düşünürəm ki, dərindən fikirləşsələr, süni intellekt uğursuz işindən, agentlik isə uğursuz xəbərindən əl götürər.

***Mətanət Məmmədova***

# "Sovetski"də abadlıq işlərinin üçüncü mərhələsinə start verilib



*"Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi qərarlar və verdiyi tapşırıqlar əsasında Bakı şəhərində olduqca geniş yenidənqurma və abadlıq işləri aparılır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.*

Onun sözlərinə görə, son 20 ildə bu işlərin nəticəsində Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Bakıda aparılan yenidənqurma və abadlıq işlərinin böyük bir hissəsi Yasamal rayonunda yerləşən, əvvəllər "Sovetski" adlanan qəsəbənin payına düşür: "Vaxtilə həmin qəsəbədə yaşamışam və oradakı bina və evlərin çoxu, bəlkə də 100 ildən çox yaşı olan, indiki müasir sanitar-gigiyenik normalara uyğun gəlməyən, necə gəldi tikilən və kommunal şəraiti olduqca pis vəziyyətdə olan mənzillər idi. Artıq bir neçə ildir ki, orada aparılan abadlıq və yenidənqurma işləri nəticəsində bu evlərin çoxu sökülüb, onların yerində gözəl parklar, yaşıllıq zonaları yaradılıb və həmin ərazidə yaşayan insanlar daha yaraşıqlı və yaşamaq üçün sosial şəraiti olan evlərə köçürülüblər.

Eyni zamanda, onlara verilən kompensasiyalar da kifayət qədər real bazar qiymətlərinə uyğundur və bu işlər vətəndaşlarımızın tam məmnuniyyəti nəzərə alınmaqla həyata keçirilir. Artıq "Sovetski"də üçüncü mərhələ üzrə yenidənqurma işləri aparılır və bu proses layihə əsasında icra olunur. Tarixi binaların qorunub saxlanılması və bərpa edilməsi şərti ilə digər yaşayışa uyğun gəlməyən mənzillər və evlər sökülür, onların yerində yeni layihələrə uyğun olaraq binalar tikilməyə başlanılıb. Bu həm ərazinin yaşıllaşmasına, ekologiyasına müsbət təsir göstərir, həm də insanlarımızın sosial həyat şəraitinin yaxşılaşdırılmasına, eyni zamanda şəhərimizin gözəlləşməsinə xidmət edir.

Azərbaycanda COP29 ötən ilin payızında keçirildi və COP29-un qəbul etdiyi qərarlardan biri də böyük şəhərlərdə yaşıllıq zonalarının artırılması və ekoloji təmiz şəhər və kəndlərin yaradılması layihələri idi ki, bu da Bakı şəhərində geniş şəkildə həyata keçirilir. Pilot layihələr uğurla icra olunub və onlardan biri də məhz yeni "Sovetski"dən başlayan layihələrdir. Bu həm insanlarımızın məmnunluğunu təmin edir, həm də Bakı şəhərinin gözəlliyinə və sosial abadlığına xidmət edir. Eyni zamanda gələcək nəsil üçün daha sağlam ekoloji-iqlim şəraitində yaşamaq üçün zəmin yaradır.



*Musa Quliyev: "Bu işlər vətəndaşlarımızın tam məmnuniyyəti nəzərə alınmaqla həyata keçirilir"*

Bütövlükdə aparılan işlər dövlətin nəzarəti altındadır. Burada özəl şirkətlər də fəaliyyət göstərir və bütün proseslər dövlət tərəfindən nəzarətdə saxlanılır. Vətəndaşlarımızla müqavilə və razılıq əsasında köçürülmə təmin edilir. Ümumilikdə götürüldükdə bu, çox uğurlu bir layihədir və bu layihələr gələcəkdə yalnız Sovetskidə deyil, Bakının digər ərazilərində də davam etdiriləcəkdir".

***Günel***

# "Azərbaycan mina terrorunun qurbanına çevrilib"

"Bildiyimiz kimi, Ermənistan Azərbaycan ərazilərini 30 ilə yaxın bir müddətdə işğal altında saxladığı dövrdə həmin ərazilərə küllü miqdarda piyada əleyhinə minalar basdırmışdır". Bu sözləri SİA-ya açıqlamasında







politoloq Azad Məsiyev deyib. Onun sözlərinə görə, bu gün işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq və quruculuq işləri üçün bu minalar birbaşa təhlükə mənbəyidir, təhlükə yaradır və infrastruktur layihələrinin həyata keçirilməsinə ciddi maneə törədir. Ümumilikdə, piyada əleyhinə minaların istifadəsi beynəlxalq konvensiyalarla məhdudlaşdırılıb: "Bu konvensiyaya 160 dövlət qoşulub və ratifikasiya edib. Ermənistan da həmin konvensiyaya qoşulmuş dövlətlər sırasındadır. Təəssüflər olsun ki, Ermənistan bu günə qədər Azərbaycan ərazisində basdırdığı piyada əleyhinə minaların xəritələrini təqdim etmir.

Azərbaycan mina terrorunun qurbanına çevrilmişdir. Minaların partlaması nəticəsində həm mülki vətəndaşlarımız, həm də müxtəlif sahələrdə çalışan insanlar zərər görür. İşğaldan azad edilmiş ərazilərdə görülən quruculuq işləri nə qədər irəliləsə də, mina xəritələrinin təqdim edilməməsi bu prosesi xeyli ləngidir. Əgər Ermənistan doğrudan da Azərbaycanla sülhə getmək istəyirsə, ərazi iddialarından əl çəkib düşmənçilik siyasətini bitirmək niyyətindədirsə, o zaman basdırılmış minaların xəritələrini təqdim etməlidir. Lakin Ermənistanın bu xəritələri hələ də verməməsi onun səmimi olmadığını və Azərbaycana qarşı düşmənçiliyini davam etdirdiyini açıq şəkildə göstərir.

Baxmayaraq ki, Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında sülh danışıqları aparılır, Ermənistan hələ də konstruktiv mövqe nümayiş etdirmir. Nə ərazi iddialarından geri çəkilir, nə də basdırdığı minaların xəritələrini təqdim edir. Bu isə düşmənçilik münasibətinin davam etdiyini göstərir və sülh danışıqlarına ziddir. Ermənistan başa düşməlidir ki, 30 il ərzində Azərbaycan ərazisində törətdiyi dağıntılar nəticəsində ölkəmizə milyardlarla dollar ziyan vurulub. Bu ziyanın təzminatı ödənilməlidir. Ermənistan həm Xocalı soyqırımına, həm də mina terroruna görə məsuliyyət daşımalıdır və bununla bağlı rəsmi təzminat verməlidir".

Politoloq qeyd edir ki, minaların xəritələrinin təqdim olunmaması, mina terroru və digər düşmənçilik əməlləri qarşısında Azərbaycan tərəfi də adekvat mövqe sərgiləməlidir. Bu cür davranışlar sadəcə sülh prosesinə deyil, həm də qonşuluq münasibətlərinə ziddir. Ermənistanın bu məsuliyyətsizliyi beynəlxalq hüquqa və insanlığa qarşı hörmətsizlikdir.

Bütün çətinliklərə baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə mina təmizlənməsi üzrə real və məqsədyönlü addımlar atır. Bu həm daxili imkanlarla, həm də dost və qardaş ölkələrin dəstəyi ilə həyata keçirilir. Təmizlənmiş ərazilərdə infrastruktur layihələri, yeni evlərin, məktəblərin, iş yerlərinin yaradılması işləri sürətlə davam etdirilir. Azərbaycan dövləti, mina təhlükəsinə və yaranan çətinliklərə baxmayaraq, qətiyyətlidir. Məqsəd – soydaşlarımızın doğma torpaqlarına təhlükəsiz şəkildə qayıtması, rahat və dinc şəraitdə yaşamasıdır. Minalar, əslində, Ermənistanın Azərbaycana qarşı davam edən düşmənçilik siyasətinin bariz nümunəsidir və buna qarşı Azərbaycan tərəfi bütün imkanlarla mübarizə aparmalıdır.

***G. Fərzəliyeva***

# Ərik ağacı

***Səhər-səhər hıçqırtı səsinə qonşu həyətə tərəf döndüm. Həsən əmidən başqa heç kimi görmədim. O, üzü budağından tutduğu ərik ağacına tərəf dayanmışdı. Hıçqırtı səsi isə hələ də gəlirdi. Maraq məni bürüdü: kimdir bu ağlayan? Yenə də ətrafa boylanır, lakin heç kimi görə bilmirdim. Həsən əmi dizəcən qarın içərisində dayandığı yerdəcə durmuşdu. Öz-özümə "görəsən bu kişi burada niyə dayanıb axı, nə fikirləşir, yoxsa, nə isə olub? Bir soruşum", – dedim. İki dəfə "Həsən əmi", – çağırdım. Bu an onun çiyinlərinin qalxıb-endiyini görəndə anladım ki, ağlayan Həsən əmidir.***

–Həsən əmi, sabahınız xeyir.

Cavab gəlmir.

–Həsən əmi, evdə nə isə olub, niyə ağlayırsınız?

Həsən əminin hıçqırtıları bir az da artır.

Nə isə olduğu tamamilə aydın idi. Həsən əmi ağlayırsa, həm də ciddi bir şey olub. Məgər kişilər də ağlayar? Həm də Həsən əmi kimi adam. Düzü, ilk dəfə bir kişinin ağladığını görürdüm. Bu adamı məhəllədə hamı qürurlu bir insan kimi tanıyırdı. El ağsaqqalı idi. Bütün xeyir-şər işləri onun məsləhəti, yolgöstərənliyi ilə qurulardı. Elə buna görə də hər kəsin ona böyük hörməti vardı.

Bu fikirlərlə həyətdən çıxıb Həsən əmigilin üç-beş metr aralıda olan bayır qapısını açıb düz yanına getdim. Əlimi çiyninə qoyub, "Həsən əmi, nə olub, niyə ağlayırsınız",-dedim. O hər vechlə üzünü məndən gizlətməyə çalışsa da, mən onun ətrafında həmin istiqamətdə fırlanırdım.

–Axı nə olub ki, ağlayırsınız? Evdə kim var?

Yenə də cavab yoxdur. Sanki Həsən əmi bu gün sözləri göz yaşına çevirib gözlərindən ələyirdi. Bir xeyli mən də lal-dinməz dayandım. Hərdən başımı qaldırır, Həsən əminin qan çanağına dönən gözlərinə baxır, yenə nəzərlərimi yerə dikirdim. Evdən də bir adam həyətə çıxmırdı ki, bu kişinin niyə ağladığını soruşam. Yenidən əlimi çiyninə qoyub:

– Həsən əmi, nə olub axı?

O, cavab əvəzinə nəzərlərini sağ əlindəki baltaya endirəndə mən məsələni anladım. Həsən əmi, "ağac", deyib bayatı çəkməyə başladı:

Əzizim, ağac əkən,
Ting salıb, ağac əkən.
Qəbrinə qurban olum,
Bağ salıb, ağac əkən.
Əzizim, sən əkmisən,
Göz nurum, sən əkmisən.
Necə kəsim indi mən,
Nə həvəslə əkmisən.
Əzizim, ağac ağlar,
Bağ ağlar, bahar ağlar.
Səni yazda görməyən,
Bahar ağlar, bar ağlar.
Əzizim, baltaya bax,
Bağa bax, baltaya bax.
Həsən, qeyrətin budur?
Əlində baltaya bax.
Əzizim, ay, bağ salan,
Tər tökübən, bağ salan,
Ə mən nə kişiyəm ki?..
Səndən bağını alan

–deyib hönkürürdü. Necə təsirləndimsə, mən də ağlamağa başladım.

Sən demə, Həsən əminin sonbeşiyi Əli möhkəm xəstələnibmiş. Buna görə də o, ərik ağacını son ümidi bilmişdi. Bir tərəfdə övladı, bir tərəfdə ata yadigarı ərik ağacı vardı. Kəssin, necə kəssin, kəsməsin, necə kəsməsin. Elə bu səbədən də ağlayırdı kişi.

Birazdan Həsən əminin səsini eşidən arvadı Gülsevər xala və yaxın qonşuların hamısı artıq həyətdə idilər. Lakin Həsən kişiyə, niyə ağlayırsan,- deyən yox idi... Çünki hər kəs eyni dərdli idi. Bu, 70 illik sovet əsarətinin son nəticəsi, qonşuluqdan kənar qonşumuzun Ermənistan ərazisindən keçən elektrik enerjisini, təbii qazı kəsərək, quru yolu bağlayaraq Naxçıvanı tamamilə blokadaya alması, günahsız insanlara yaşatdığı acı idi.



HEKAYƏ

* * *

Naxçıvanlılar ta qədimdən ağac əkən olublar. Burada evlərdə hər uşaq dünyaya gələndə onun adına bir ağac əkilər. Həmin ağac o uşaqla bərabər böyüyər, uşaq evdən ayrılıb gedəndən sonra da ağacının meyvəsi yığılıb ona çatdırılar.

Ağac Naxçıvan üçün ata-baba yadigarı, el dəyəri, adət-ənənə, müqəddəslikdir. Zaman olub ki, su qıtlığı olub, adamlar bulaqdan vedrə ilə su daşıyıb həyətlərindəki ağacları suvarıblar, amma onları qurumağa qoymayıblar. Ağac Naxçıvan kəndlisinin ümid yeri olub. Cəvizini, badamını, ərik, tut qurusunu bazarlarda başqa ərzaq məhsullarına dəyişib qışlıq azuqəyə çevirib. İkinci Dünya Müharibəsi zamanı "böyük Vətən" uğrunda ərləri, oğulları döyüşə yollanan qadınların-ana-nənələrin, gəlinlərin namusu, həyası olub ağaclar. Onların barı ilə balalarını bir yana çıxarıblar. Bu ağaclarla yoxluq, qıtlıq illərində övladlarının gözlərini doyurublar...

Ağac Naxçıvanda hər bir evin qurür mənbəyidir. Çünki burada həyətində hər cür meyvə ağacı olmayan adama el qınağı var: "Qeyrəti olsa, həyətini boş saxlamaz, ağac əkib, barını bazara çıxarmaqla dolanışığını qurar".

Ağac Naxçıvanda kölgəlikdir. Bu yerin insanları yayın cırhacırını ağacların altında yola verərlər. Ev köçər həyətlərə yayda. Ağac alıtına xalça, palaz, kilim açılar, yay bitənədək orada qalar: samovar bir yanında, oçaq bir yanında.

***

Səhərdən bəri Həsən kişinin həyətindəki əsas süjet xəttini sükutun təşkil etdiyi hadisənin fonunda, bir də eyni dərd ortağı olan insanların üzlərindəki çarəsizlik cizgilərində düşünürdüm bunları. Susmuşdu insanlar, danışmırdılar. Çünki onlar da həyətlərində ata-babalarının cadarlaşmış zəhmətkeş əllərilə əkdiyi, alın təri ilə suvardığı, ilk barını 5-6 tikəyə bölüb bütün ailə üzvlərinə daddırdığı ağacları kəsib sobaya qoyurdular. Hətta öz əlləri ilə əkdikləri də bu dəhşətli illərin-Naxçıvan blokadasının qurbanı olurdu. Artıq çöl-bayırın, dağ- dərənin kol-kosu, ağac-budağı bitib tükənirdi. Ətraf bütünlüklə gövdədən kəsilib götürülmüş, torpaqdan bir qarış boy çıxarıb baltanın, mişarın köksünə vurduğu yaralardan sızlayan kötüklərlə dolu idi. Və hələ gün gələcəkdi ki, adamlar o topal kötükləri də kökdən çıxarıb xəstələrinin, uşaqlarının donub ölməməsi üçün yarım saatlıq da olsa, evlərinin istiliyinə çevirəcəkdi...

* * *

Gülsevər xala iki addım irəli gəldi və əlini Həsən əminin çiyninə qoyub, – Həsən, denən ki:

Ay dədə, bir bizə gəl,
Qadan alım, bizə gəl,
O sevdalı bağını,
Alır fələk, bizə gəl.
Əzizim, dövrana bax,
Günə bax, rüzgara bax.
Qoy evləri yıxılxın,
Sən də dön, onlara bax.
Bağ qalır, bağban gedir,
Bağ salır, bağdan gedir.
Gəlib xəzan yelləri,
Bağı götürüb gedir.
Əzizim, ruhlar edib,
Çoxdan xəbərdar edib.
Kəsilən bu ağaclar,
Bizdən şikayət edib.

Bu bayatılardan sonra artıq buradakı vəziyyəti ifadə etməyə söz acız qalır. Bir atanın qapısına gətirilən şəhidmi deyim, bir ananın qucağına verilən qəzaya düşüb həyatını itirmiş övladmı deyim ki, buradakı hadisənin və insanların acısını ifadə edə bilim...

Gülsevər xalanın bayatıları camaata elə sitəm etmişdi ki, heç kim Əlinin evdən çıxıb bizə yaxınlaşdığını görməmişdi. Bir də baxdıq, Əli yanımızdadır, istilikdən də yanır. Uşaq atasına:

–Ata, kəsmə, babamın əkdiyi ağacı. Mən bir təhər dözərəm.

Bu sözlər Əlinin ağzından çıxmışdı ki, Həsən əmi dizlərini yerə vurub uşağı qucaqlayıb necə hönkürdüsə, elə bil bir anda göy yerə çökdü.

Əli bir də:

–Kəsmə, ata.

Uşaq bu iki kəlmə sözü deyib huşunu itirdi. Camaat bir-birinə qarışdı. Gülsevər xala özünə əl qoydu. Əlini qonşu Rövşən əminin sınıq-salxaq maşını ilə xəstəxanaya apardılar. Biz də maşının ardınca piyada yola düşdük.

* * *

Xəstəxana buz kimi idi. Pəncərələrin sınıq şüşələrindən soyuq əli qılınclı düşmən kimi içəriyə girir, kəsir, doğrayır, uzaqlaşır, bir də hücuma keçirdi. Əli çarpayının üzərində taqətsiz vəziyyətdə uzanmışdı. Aradabir titrəyir, zarıyır, yenə susurdu.

İstiliksalıcı bir dərman tapdılar, lakin nə spirt, nə qaynar su, nə də pambıq tapıldı ki, bu iynəni vursunlar. Tibb bacısı axır ki, bint parçası əlində içəriyə girdi:

–Tapdığım bu oldu.

Elə onunla da uşağın dərisini silib iynəni vurdu. Bir azdan artıq Əlinin istiliyi enmişdi. Amma dayanmadan öskürürdü.

* * *

Günortaya yaxın Əlini elə tezdənki maşınla da evə qaytardılar. Ev o qədər soyuq idi ki, uşaq yerinə uzanıb yarım saat titrəyəndən sonra toxdadı.

Gülsevər xala maşınkasını işə salıb, çaydanı üstünə qoydu. Birazdan Əliyə çay gətirdi.

Belə soyuqdəymələrdə adama şirin çay xoş gələr. Amma şirin çay nədir, bir tikə qənd tapılırdımı? Gülsevər xala ortaya səhərdən bəri ətrafına yığışıb ağlaşdığımız kəsilməyə məhkum olan ərik ağacının quru meyvəsini yığdığı qənddanı qoydu.

Əli doğranmış ərik qurusundan biri ilə çayını içdi. Bu an içimdə bir üsyan başladı: nə üçün bu balaca bir tikə qəndə həsrət qalmalıdır? 70 il bundan yanamı neftimiz, pambığımız, digər yerüstü, yeraltı sərvətlərimiz imperiyaya qurban verildi? 70 illik köləliyin sonu budurmu? İsti, işıqlı evlər, bir qarın çörək, bir tikə qənd üçün yoxsa ömürlük tabe olmalıydıq? Bu idimi bizim 70 il "böyük Vətən", – adlandırdığımız ölkə? Bəli, bunların ideologiyası "ya tabe ol, ya bu cür sürün" imiş.

Yəni bunu bilməyən vardımı ki, Naxçıvanın blokadasını birbaşa ittifaq planlamışdı? Düz Əlinin gözlərinin üçinə baxır, ürəyimdəki üsyanla deyirdim: Əli, iç çayını ərik qurusu ilə. Nə qədər ki, köləlik var, məhkumsan, iç. Nə qədər ki, azad deyilsən, tək şirin çaydan yox, hər şeydən məhrumsan...

Həsən kişinin Gülsevər xalaya "çöldən gülxətmi yığıb gətirmişdim, ondan dəmlə, uşaq içsin", – deməsi isə Əli üçün öskürək dərmanının yalnız bundan ibarət olması demək idi. Şükürlər olsun yurdumuza İlahinin verdiklərinə. Gülxətmisi, çobanyastığı, kəklikotusu, boymadərəni, nanəsi, yarpızı, solmazçiçəyi, həmərsini blokadanın ağır illərində insanların harayına gəlib, dadına yetişdi, xəstələrimizin şəfası oldu. Harada idi dərman, onu almaq üçün pul?

* * *

Əlinin artıq istiliyi enmişdi. Çay içəndən sonra yatağında yuxulayırdı. Qonşular ikibir, üçbir dağılışırdı. Ev isə daha da soyuyurdu. Danışdıqca ağızdan çıxan və soyuğa tab gətirməyən nəfəs anən görünüb, yox olurdu.

Mən də qalxıb evə tərəf üz tutdum. Yolboyu "birazdan Əli oyanacaq. Görəsən Gülsevər xala bir şorba hazırlayıb ona içirə biləcəkdimi?.. Əli oyananda evin bu buz soyuğuna o kiçik, həm də suyuqdəymədən taqətsizləşən bədəni ilə tab gətirə biləcəkdimi?"düşüncələrilə evə çatdım. Bizim evin də Həsən əmigilin evindən heç bir fərqi yoxdu. 1990-cı ilin sonu, 1991-ci ilin əvvəlinin qışı, hər yer eyni idi: məktəblər, baxçalar, kitabxanalar, idarə, müəssisə, təşkilatlar....

* * *

Hazırlaşıb işə getməliydim... Evdən çıxanda balta səsinə qonşu həyətə boylandım. Həsən əmi idi, əriyin köksünə bir-birinin ardınca zərbələr endirirdi. Ağacın gövdəsindən qopan oduncaqlar ağappaq qarın üstünə səpələnir, onu çirkləndirir, bəyazlığını yox edirdi. Bu, necə də xalqımıza xəyanət edənlərin xislətinə bənzəyirdi.

Dayanıb bir xeyli tamaşa etdim. Birdən Həsən əmi məni gördü, yenə ağlayırdı... Ağır addımlarla həyətlərimiz arasındakı böyürtkən kollarının yaratdığı hasara tərəf gəldi. Mən də ona tərəf irəlilədim. Əlinin arxası ilə gözünün yaşını silib, sonra qollarını mənə göstərib dedi:

– Bu qollarımı kəsəydilər kaş, amma mənə bu ağacı kəsdirməzdilər...

* * *

...Həsən əmiyə bu ağacı kəsdirən həyat, onun haqsızlığı, ədalətsizliyi idi. Blokadada olan Naxçıvanın ağrılı-acılı ilk illəri idi...

***Mətanət Məmmədova***



# Ultimatum sona çatır

**ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoffun avqustun 6-da Moskvaya səfəri gözlənilir. Səfər zamanı o, Rusiya rəhbərliyi ilə danışıqlar aparmağı planlaşdırır. Bu məsləhətləşmələrin nəticələrinə əsasən, Ağ Ev rəhbəri Donald Tramp Rusiyaya qarşı rüsumların tətbiqi, həmçinin Rusiya neftini alan ölkələrə ikinci dərəcəli sanksiyaların tətbiqi imkanları barədə qərar verəcək. Amerika liderinin Moskvaya Ukraynada atəşkəsə doğru addım atması üçün müəyyən etdiyi müddət avqustun 8-də başa çatır. Rusiya tərəfi ABŞ prezidentinin bəyanatlarını qəbuledilməz hesab edir. Rusiya Xarici İşlər Nazirliyi məhdudiyyətlərə qarşı çıxmaq üçün Qlobal Cənub və BRİKS ilə əməkdaşlığı davam etdirməyə hazır olduğunu bildirib. Tramp Rusiyanı hansı sanksiyalarla hədələyib və onların Rusiya iqtisadiyyatına təsir edib-etməməsi qeyri-müəyyən olmasa da, maraqla izlənməkdədir.Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Rusiya lideri Vladimir Putinlə Uitkoff arasında görüş ola biləcəyini istisna etməyib. Onun sözlərinə görə, Ukrayna münaqişəsinin həlli istiqamətində səylər xüsusi əhəmiyyət kəsb edir. Qarşıdan gələn görüşü Trampın özü elan edib.**



## *Uitkoffun Moskvaya gəlişindən sonra nə dəyişəcək?*

### Tramp ABŞ-ı Ukrayna münaqişəsindən çıxarmaq istəyir

Tramp bildirib ki, o, ABŞ-ı Ukraynadakı hərbi münaqişədən çıxarmağa çalışır. "Bu, mənim müharibəm deyil. Mən bizi bu müharibədən çıxarmaq üçün buradayam. Bu, ABŞ-ın keçmiş prezidenti Co Baydenin müharibəsidir və biz bizi bu müharibədən çıxarmaq üçün çox çalışırıq", - Ağ Evin rəhbəri bildirib. Amerika liderinin sözlərinə görə, son bir neçə ay ərzində o, "beş müharibəni dayandırıb". Tramp istərdi ki, Ukrayna münaqişəsi altıncı olsun.Əgər avqustun 8-i cümə gününə qədər Ukraynada atəşkəslə bağlı razılıq əldə olunmasa, Amerika lideri Rusiyaya qarşı daha sərt sanksiyalar və rüsumlar tətbiq etmək niyyətindədir. O, belə bir müddəti iyulun 29-da təqdim edib. Əvvəlki - 50 gün - iyulun 14-dən qüvvədə idi. "Sanksiyalar olacaq, lakin onlardan qaçmaqda kifayət qədər müvəffəq olurlar. Bilirsiniz, onlar hiyləgər insanlardır və onlardan qaçmaqda kifayət qədər müvəffəq olurlar, ona görə də görəcəyik ki, bundan nə çıxacaq", - Ağ Ev rəhbəri Fox News kanalında deyib.Bundan əvvəl Tramp Rusiya və onun Rusiya neftini alan ticarət tərəfdaşlarına qarşı "təxminən 100%" ikinci dərəcəli rüsumlar tətbiq edəcəyini vəd etmişdi. Xarici jurnalistlərin fikrincə, bu cür bəyanatlar Amerika prezidentinin Pekini Rusiyanı dəstəkləməkdən imtina etməyə inandırmaq üçün Çinə təzyiq etmək istəyi ilə bağlıdır. Bu yanaşma onunla izah olunur ki, Trampın Moskvaya qarşı əvvəlki strategiyaları öz effektivliyini itirib və Rusiya ordusunun cəbhədəki uğurları Vaşinqtonu münaqişəyə tez bir zamanda son qoymağa səy göstərməyə vadar edir, onlar əlavə edirlər.Bundan əlavə, ABŞ prezidenti hesab edir ki, o, Rusiya Federasiyasına qarşı daha bir təzyiq rıçağını aşkar edib. Xüsusilə o, bəyan edib ki, neftin qiymətinin yeni tavanının tətbiqi və bir barelin qiymətinin daha 10 dollar aşağı salınması Rusiyanı Ukrayna münaqişəsində barışıq əldə etməyə inandıra bilər. Hər halda, Ağ Ev rəhbəri yekun qərarın yalnız Rusiya Federasiyası və ABŞ nümayəndələrinin görüşündən sonra veriləcəyini bildirib. Hərbi ekspert Tomas Tayner Bild qəzetinə müsahibəsində bildirib ki, Rusiya Trampın ultimatumuna məhəl qoymasa, kritik heç nə baş verməyəcək. Onun sözlərinə sübut kimi məlum oldu ki, Braziliya və Hindistan Amerika liderinin təzyiqlərinə baxmayaraq, Rusiya neftini almağı dayandırmaq fikrində deyil. Bu fikri çinli ekspertlər bölüşüblər. Hindistan şirkətləri Rusiya neftinin indiki idxal səviyyəsini saxlamağa davam edəcək, çünki bu yanacaq ölkə üçün ucuzdur.

### ABŞ-ın "beşdə bir" hədəfi

Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti, Milli Enerji Təhlükəsizliyi Fondunun aparıcı analitiki İqor Yuşkov bildirib ki, Rusiya neftinin alınmasına qoyulan qadağa digər Qərb ölkələrində, o cümlədən Avropada inflyasiyaya səbəb olacaq. Qərb siyasətçiləri hadisələrin bu cür dönüşünə hazır olmaya bilərlər. "Rusiya gündə 6-7 milyon barel neft ixrac edir - bu, qısa müddətdə əvəz edilə bilməyən həcmdir. Əgər tərəfdaşlar bizim xammaldan imtina etsələr, bu, ciddi enerji böhranına gətirib çıxaracaq, çünki o zaman neftin qiyməti nəinki artacaq, həm də üçrəqəmli dəyərlərə - bir barel üçün 150-200 dollara qədər yüksələcək və bu, həm də Avropada yanacağın bahalaşmasına səbəb olacaq", - Yukov bildirib.Rusiyaya qarşı sanksiyalar tətbiq edən ölkələr vəziyyəti daha da pisləşdirir. Bu barədə iyunun sonunda Rusiya prezidenti Vladimir Putin məlumat verib. Bundan əvvəl Rusiya lideri dəfələrlə Qərbin Rusiyaya qarşı sanksiyalarının səmərəsiz olduğunu açıqlayıb. Rusiya ABŞ-ın qeyri-qanuni birtərəfli sanksiyalar təzyiqinə qarşı çıxmaq üçün Qlobal Cənub və BRİKS ilə əməkdaşlığı artırmağa hazırdır.

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova teleqram-kanalında məlumat verib. "Biz qeyri-qanuni birtərəfli sanksiyalar təzyiqinə qarşı çıxmaq və həqiqətən çoxtərəfli, ədalətli və bərabər dünya nizamını formalaşdırmaq üçün onlarla əməkdaşlığı artırmağa hazırıq", - Zaxarova yazıb.ABŞ prezidenti Donald Tramp iyun ayında İrandakı nüvə obyektlərinə zərbələr endirmək üçün istifadə edilən ssenariyə bənzər "İran ssenarisi"ni Ukraynada həyata keçirməyə çalışır. Bu strategiya taktiki silahlardan istifadəni və sonradan təslim olmaq üçün ultimatum verilməsini nəzərdə tutur. Tramp mürəkkəb siyasi oyun oynayır: bir tərəfdən o, açıq şəkildə sülhə çağırır, digər tərəfdən isə həm İsrailə, həm də Ukraynaya maliyyə dəstəyini davam etdirir. Eyni zamanda, Amerika lideri bu ölkələrə təzyiq göstərmir və onlara qarşı sanksiyalar tətbiq etmir.

### Rusiyaya hücum olacağı təqdirdə ...

Əsas qərar qəbuletmə mərkəzlərində Rusiyaya hücum olacağı təqdirdə cavab zərbəsi endirilə bilər. Və bu, Litvanın deyil, tamamilə fərqli ölkələrin şəhərləridir, Moskva Dövlət Pedaqoji Universitetinin Tarix və Siyasət İnstitutunun direktor müavini Vladimir Şapovalov bildirib ki, "Qərbin Rusiyaya qarşı mümkün birbaşa hərbi təcavüzündən hipotetik danışsaq, Rusiyanın cavab zərbəsi əsas mərkəzlərə endirilə bilər. Təbii ki, nə Klaypeda, nə də Kaunas belə mərkəzlər deyil. Bu mərkəzlər tamam başqa yerlərdə yerləşir".Amerikalı general, NATO Quru Qoşunlarının komandanı Kristofer Donahu deyib ki, NATO-nun Kalininqrad vilayətində Rusiya ordusunun müdafiə potensialını tez bir zamanda boğmaq planı var. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov buna cavab olaraq bildirib ki, bu cür bəyanatlar Rusiyanı öz təhlükəsizliyini təmin etmək üçün tədbirlər görməyə məcbur edir.Rusiya dünyada Amerika Birləşmiş Ştatlarını məhv etməyə qadir olan yeganə ölkədir.

Bunu Vladimir Şapovalov deyib. "Rusiyanın nüvə doktrinası daha da sərtləşib. Öz təhlükəsizliyimizə təhlükə yaranarsa, biz düşmənə nüvə zərbəsi endirməyə hazırıq. Rəqiblərimiz unudurlar ki, Rusiyanın nüvə arsenalı ABŞ, Böyük Britaniya və Fransanın birgə arsenalından daha böyükdür. Rusiya ABŞ-ı məhv edə biləcək yeganə ölkədir". Amerika Alimləri Federasiyasının məlumatına görə, 2024-cü ilin sonunda Rusiyada 5580 nüvə başlığı, "üçlüyün" ümumi arsenalı isə 5559 döyüş başlığı idi.Rusiyanın arqumenti: Dünyada nüvə silahından sınaq məqsədi ilə deyil, mülki əhalinin məhv edilməsi məqsədilə hərbi sahədə istifadə edən yeganə ölkə ABŞ-dır: 1945-ci il avqustun 6-da Yaponiyanın Xirosima şəhərinə, avqustun 9-da isə Naqasakiyə atom bombası atıblar.

**V.VƏLİYEV**

***Qərbi Azərbaycan – bu ad sadəcə bir coğrafi bölgəni deyil, bir xalqın yağı düşmən tərəfindən silinmək istənilən yaddaşını, zorla əlindən alınan yurd yerlərini, tərk edilməyə məcbur edilən doğma torpaqlarını xatırladır. Tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bu ərazilərdə yaşayıb, burada öz mədəniyyətlərini, dil və dinlərini yaşadıb, kəndlər salıb, şəhərlər qurublar. Günümüzə qədər gəlib çatan saysız-hesabsız sənədlər, xəritələr, toponimlər bunu bir daha sübut edir. Ən diqqətəlayiq fakt odur ki, bu ərazilərdə yerləşən yaşayış məntəqələrinin adlarının əksəriyyəti Azərbaycan mənşəlidir.***



# Tarixi yaddaş, silinməyən deportasiya izləri - Qərbi Zəngəzur

## *Bu bölgədən amansız işgəncələrlə qovulmanın son ünvanı 1991-ci il avqustun 8-nə keçən gecə Nüvədi kəndi oldu*

Bu adlar o torpaqlarda azərbaycanlıların qədimdən yaşadıqlarının susmayan, danılmaz şahidləridir. Ermənilər isə bu coğrafiyaya sonradan köçürülüblər. Onların burada məskunlaşdırılması tarixi faktlarla təsdiqlənir və bu, regionda strateji maraqları olan böyük dövlətlərin imperiya siyasətinin bir nəticəsi idi. Həmin köçürmələrdən sonra azərbaycanlıların öz torpaqlarında təhlükəsiz yaşamaları mümkün olmadı. Nəticədə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız dəfələrlə hücumlara, qətliamlara, zorakı köçürmələrə və kütləvi deportasiyalara məruz qaldılar.

XX əsr Azərbaycan xalqı üçün yalnız inkişaf və mübarizə ilə deyil, həm də ardarda baş verən faciələrlə yadda qalıb. Bu



faciələrin başlıca ünvanı isə məhz Qərbi Azərbaycan olub. Bu ərazilərdə aborigen, yəni yerli əhali olan azərbaycanlılar tədricən, planlı şəkildə öz doğma yurdlarından sıxışdırılıb çıxarılıb. Ermənilərin əsl məqsədi "dənizdən-dənizə böyük Ermənistan" xülyasını gerçəkləşdirmək və bütün regionu erməniləşdirmək idi. Onların bu iddiaları və etnik təmizləmə siyasəti təkcə İrəvanla yekunlaşmadı. 1920-ci ildə keçmiş Sovet hökumətinin qərarı və erməni siyasətçilərinin təzyiqi nəticəsində Zəngəzur da Azərbaycandan qoparıldı və Ermənistana birləşdirildi. Bu addım təkcə bir bölgənin itirilməsi deyildi. Bununla Azərbaycan Naxçıvandan və dolayısı ilə Türkiyədən coğrafi baxımdan təcrid edildi. Bu isə bütövlükdə türk dünyasının parçalanmasına xidmət edən məkrli bir geosiyasi planın tərkib hissəsi idi. Zəngəzurun Ermənistana birləşdirilməsi də xalqımıza qarşı yönəlmiş açıq bir cinayət idi. Bu proses erməni millətçilərinin Moskvadakı mövqeləri sayəsində həyata keçirildi. Həmin dövrdə sovet rəhbərliyində mühüm mövqelərdə təmsil olunan ermənilər Azərbaycan əleyhinə qərarların verilməsində mühüm rol oynadılar. Beləcə, XX əsrin ortalarında daha bir ağır fəlakət yaşandı. 1948-1953-cü illərdə minlərlə azərbaycanlı doğma yurd-yuvasından deportasiya edildi.

1970-1980-ci illər də Azərbaycanın tarixində siyasi uzaqgörənliyin, milli maraqlar naminə prinsipial qərarların verildiyi və mühüm təhlükələrin qarşısının alındığı bir dövr kimi yadda qalıb. Bu dövr Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasına birinci rəhbərlik etdiyi illərə təsadüf edir. Məhz Ulu Öndərin qətiyyətli siyasi iradəsi, milli məsələlərə həssas yanaşması və xalqın taleyini hər şeydən üstün tutması sayəsində Qərbi Azərbaycanda xalqımıza qarşı planlaşdırılan yeni deportasiya və etnik təmizləmə siyasətinin qarşısı alındı. Heydər Əliyevin Moskva rəhbərliyi arasında nüfuzu və siyasi çəkisi o qədər güclü idi ki, erməni dairələrinin planlaşdırdığı yeni təxribatlar, sərhəd dəyişiklikləri və zorakı köçürmələr reallaşdırıla bilmədi.

Lakin bu balans və siyasi sipər çox çəkmədi. 1987-ci ildə Heydər Əliyevin Sovet İttifaqı rəhbərliyindəki, tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ilə Ermənistan rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı növbəti mərhələli planların reallaşdırılması üçün münbit şərait yarandı. Qərbi Azərbaycanda yaşayan soydaşlarımız üçün yenidən qara günlər başlandı. Bu, təkcə etnik təmizləmə deyil, eyni zamanda, amansız bir soyqırımı və planlı bir humanitar fəlakət idi. 1988-1991-ci illəri əhatə edən sonuncu deportasiya mərhələsi yalnız miqyası ilə deyil, qəddarlığı və sistematikliyi ilə də seçilir. Bu dövrdə azərbaycanlılar işgəncələrə, vəhşi qətllərə, kütləvi təhqirlərə və zorakılıqlara məruz qaldılar. Məqsəd sadəcə insanların yaşadığı torpaqlardan çıxarılması yox, eyni zamanda, onların ruhunun sındırılması, milli kimliyinin əzilməsi idi. Bu dövr tarixi yaddaşımıza ən qanlı, ən qəddar mərhələ kimi həkk olundu.

Bu bölgədən amansız işgəncələrlə qovulmanın son ünvanı 1991-ci il avqustun 8-nə keçən gecə Nüvədi kəndi oldu. Bu tarix Qərbi Azərbaycanda azərbaycanlıların mövcudluğuna son qoyulan gün kimi yadda qaldı. XX əsr ərzində Nüvədi kəndi üç dəfə erməni hücumlarına məruz qalıb: 1905-ci ildə əhali köçməyə məcbur edilib, 1918-ci ildə kənd yandırılıb, 1991-ci ildə isə tam işğal olunub. Lakin bu kəndin sakinləri 1987-1991-ci illər arasında üç il boyunca gecə-gündüz növbə çəkərək, böyük iradə və birlik göstərərək doğma yurdlarını qorumağa çalışıblar. Onların müqaviməti xalqımızın yurd sevgisinin və vətənə bağlılığının rəmzinə çevrilib. Nüvədi kəndində yaşanan bu ağır taleyin fonunda azərbaycanlıların öz doğma torpaqlarına bağlılığı və vətən uğrunda göstərdikləri müqavimət xalqımızın milli şüurunda dərin izlər buraxdı.

Prezident İlham Əliyev azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılmasını haqlı olaraq "dəhşətli deportasiyalar" kimi səciyyələndirir. Bu deportasiyalar təkcə azərbaycanlılara qarşı deyil, həm də beynəlxalq hüquq normalarına, insanlığa qarşı törədilmiş bir cinayət idi. İnsanların öz tarixi torpaqlarından zorla çıxarılması, onların mənəvi travmalarla yaşamasına və milli yaddaşlarının itirilməsi təhlükəsinə gətirib çıxardı. Bu mənəvi irs, XX əsrin sonunda və XXI əsrin əvvəllərində Azərbaycanın əsas ümummilli hədəfi – ərazi bütövlüyünün və suverenliyin bərpası uğrunda mübarizədə xüsusi əhəmiyyət kəsb etdi. İkinci Qarabağ müharibəsinədək Azərbaycanın əsas ümummilli ideyası ərazi bütövlüyünün və suverenliyin bərpası idi. Prezident İlham Əliyevin liderliyi ilə bu məqsədə çatmaq üçün bütün milli güc səfərbər olundu və Vətən müharibəsi ilə antiterror tədbirləri nəticəsində bu ideya reallığa çevrildi. Lakin tarix qarşısında məsuliyyətimiz bununla bitmir. Yeni dövrdə əsas prioritetlərdən biri Qərbi Azərbaycandan deportasiya olunan azərbaycanlıların doğma yurdlarına dinc şəkildə qayıdışının təmin edilməsidir. Ermənistan bu qayıdışı öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışsa da, Azərbaycanın niyyəti beynəlxalq hüququn tanıdığı insan haqlarını təmin etməkdir. Bu hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərlə təsbit olunub. Prezident İlham Əliyevin vurğuladığı kimi, azərbaycanlılar Qərbi Azərbaycana tanklarla yox, avtomobillərlə qayıdacaqlar. Qayıdışa inam güclüdür və bu milli ideya artıq yeni strateji mərhələnin mərkəzindədir.

***Nigar Orucova***




# “Bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir”

***Ölkə ərazisində yer adlarının - toponimlər sisteminin formalaşması zaman tələb edir. Yüz illər boyunca yaranmış bu adlar ərazinin coğrafi relyefi, tarixi şəxsiyyətləri, eləcə də tayfaların adları ilə adlandırmış, zamanın sərt sınaqlarında xalqın tarixi-coğrafi ərazidəki izlərinin silinməsinə məqsədi ilə saxtalaşdırılmışdır.***

Qədim Azərbaycan torpağı olan İrəvanda olduğu kimi. İdiki Ermənistanın paytaxtı və ən böyük şəhəri. Qərbi Azərbaycanın mədəniyyət mərkəzi olmuşdur. Mənbələrdə qeyd olunduğu kimi, İrəvanın tarixi eramızdan əvvəl 8-ci əsrə, eramızdan əvvəl 782-ci ildə Urartu kralı I Argişti tərəfindən Ararat düzənliyinin qərb kənarında Erebuni qalasının əsasının qoyulması ilə başlayır. İran və Rusiyanın hakimiyyəti altında 1736–1828-ci illərdə İrəvan xanlığının və 1850–1917-ci illərdə İrəvan Qubernatorluğunun mərkəzi olmuşdur. İrəvan şəhəri, 26 may 1918-ci ildə Zaqafqaziya Demokratik Federativ Respublikası dağıldıqdan sonra, Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində qalmış, daha sonra Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasının 29.05.1918-ci il tarixli qərarı ilə Ermənistana güzəştə verilmişdir.

2000-ci illərin əvvəllərindən bu yana şəhərin hər yerində çoxlu tikinti işləri aparılıb və sovet dövründə nadir olan restoranlar, mağazalar və küçə kafeləri kimi pərakəndə satış məntəqələri çoxalıb. 2011-ci ilə olan məlumata görə, İrəvanın əhalisi 1.060.138 nəfər olub, Ermənistanın ümumi əhalisinin 35%-dən bir qədər çoxunu təşkil edir. 2022-ci ilin rəsmi hesablamalarına görə, şəhərin hazırda əhalisi 1.092.800 nəfərdir.

İrəvan xanlığını işğalından başlamış, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan Respublikası yarananadək ötən müddət ərzində həmin ərazidə yalnız üç azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdi. Ermənistanda türkmənşəli toponimlərin erməniləşdirmə kampaniyasına hələ daşnak hökuməti zamanında başlanılmışdır. 1919-cu ilin dekabrında Ermənistan hökumətinin qərarı ilə daxili işlər nazirliyinin nəzdində kəndlərin, şəhərlərin, çayların və dağların adlarının dəyişdirilməsi üçün xüsusi komissiya yaradılmışdı.

## 521 TÜRKMƏNŞƏLİ YAŞAYIŞ MƏSKƏNLƏRİNİN ADLARI DƏYİŞDİRİLDİ

Azərbaycan türklərinin tarixi-etnik torpaqlarındakı izlərini silmək məqsədini güdən addəyişmə əməliyyatları ilk növbədə türklərin soykökü, onun tarixi keçmişi ilə bağlı yaşayış məskənlərinin adlarının dəyişdirilməsinə xüsusi diqqət yetirilmişdir. 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra da türkmənşəli toponimlərin erməniçiləşdirilməsi prosesi davam etdirilmişdir. 1935-ci ilədək Ermənistanda 200-ə yaxın yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. 1935-ci ildən etibarən isə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında həyata keçirilmişdir.

Sovet hakimiyyəti dövründə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında 1935, 1938, 1939, 1940, 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977, 1978, 1980–ci illərdə addəyişmə əməliyyatları həyata keçirilmişdir. Ermənistanda daşnakların hakimiyyəti dövründən 1935-ci ilədək 195 yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. 1988-ci ilin avqust ayınadək – yəni azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya olunmalarınadək indiki Ermənistan ərazisində 521 türkmənşəli yaşayış məskənlərinin adları dəyişdirilmişdir.

## “QƏDİM AZƏRBAYCAN YAŞAYIŞ MƏNTƏQƏLƏRİ ƏSL ADLARI İLƏ DƏ ÇAĞIRILMALIDIR”

Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir ki, bu zaman məsafəsində təkcə ərazi iddiaları ilə təcavüzkar siyasətlərini davam etdirməyib, eyni zamanda mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikib, onları özününküləşdirməyə çalışıblar. Mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq, əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Bütün bunlarla yanaşı, neçə əsrlərdir ki, Azərbaycan toponimlərinə qarşı təcavüzkar siyasətləri reallaşdırıblar. Mənbələrə istinadən deyə bilərik ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermiş, türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Belə ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilərək Aleksandrovka qoyulması ilə başlayıb. 1924-cü ildən aparılan addəyişdirmə prosesi nəticəsində Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1924–1930-cu illər ərzində Ermənistanda türk mənşəli 80 toponim dəyişdirilmişdir. Toponimlərin dəyişdirilməsinə səbəb kimi Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda qeyd olunurdu ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir. Təbii ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türk mənşəli olması idi. Toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra daha da sürətləndi. 1946–1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması, eləcə də qeyd olunan illərdə təqribən 90 000 erməninin Qərbi Azərbaycana köçürülməsi buna səbəb idi. Tarixçi alimlərin qənaətinə əsasən, toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası idi. Bu qərara əsasən, 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı Ermənistandan köçürüldü. Vurğulayaq ki, Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

Zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. Adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Rayon ərazisində irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çaylar vardır. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmş adı Masrik) çayıdır. Çaxırlı yaylası da bu rayon ərazisindədir. Tarixi mənbələrdə göstərilir ki, 1948-1951-ci illərdə rayon əhalisinin bir qismi Azərbaycan ərazisinə köçürülmüşdür. Təkcə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır. Bu vaxt Basarkeçərin 37 kəndində 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi.

## ”ERMƏNİSTAN BASARKEÇƏR RAYONUNU, ONUN ADINI DƏYİŞDİRƏRƏK ONA “VARDENİS” ADI QOYMUŞDUR”

Vurğulamaq yerinə düşər ki, 28 noyabr 1988-ci il tarixdə daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edərək nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfəri döyərək işgəncə ilə qətlə yetirmişlər. Qarda-çovğunda borana düşən qaçqınlardan 12 nəfər isə donvurmadan tələf olub.

Basarkeçər rayonunun Daşkənd, Nərimanlı, Ağkilsə, Pəmbək, Qızılvəng, Şişqaya, Zod, Qanlı, Yuxarı Zağalı, Sətənağac, Kəsəmən, Göysu, Dərə, Subatan, Sarıyaqub, Çaxırlı, Zərkənd, Canəhməd, Yarpızlı, Böyük Məzrə, Kiçik Məzrə, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Qoşabulaq, İnəkdağı, Babacan, Kərkibaş, Qayabaşı, Qaraiman, Ağyoxuş, Yuxarı Şorca, Aşağı Şorca, Qırxbulaq, Gödəkbulaq, Tüskülü, Qamışlı, Aşağı Zağalı kimi kəndləri var.

Bu gün Azərbaycan öz tarixi torpaqlarına qovuşub. 44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğala son qoydu. Bu gün türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb və orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. Basarkeçər rayonuna Ermənistanda ”Vardenis rayonu” deyilir. ”Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır”, - deyə Cənab Prezident bildirib: ”Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona ”Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda ”Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır”.

Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. Suqovuşan kəndi 1923-cü ildə təşkil edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil edilib. 1943-cü ildə Suqovuşana şəhər tipli qəsəbə statusu verilmişdi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biri olmuşdur. Onu da vurğulayaq ki, Suqovuşan ilk dəfə 1991–1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən bu ərazinin tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edilərək Suqovuşan adlandırılmışdır.

## 1988-89-CU İLƏ QƏDƏR AZƏRBAYCANLILAR YAŞAMIŞ 16 RAYONDA 90 TÜRK MƏNŞƏLİ TOPONİMLƏR DƏYİŞDİRİLİB

Tarixçi alimlərin fikirlərinə istinadən deyə bilərik ki, bir çox hallarda yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməncəyə tərcümə olunmuş, ya da bir-iki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melikkənd-Melikgyuğ və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin, düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. İndi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi.

Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəli idi. Zaman yetişəcək Azərbaycanın bütün tarixi adları yenidən özünə qaytarılacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.***

# XƏBƏRDARLIQ: Əlini pəncərədən çölə çıxaran sürücülər cərimələnəcək!



***Bəzi sürücülərin avtomobildə hərəkətdə olan zaman əlini pəncərədən çölə çıxarması qəza riskini artırır. SİA xəbər verir ki, bu barədə Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin müraciətində qeyd olunub.***

Bildirilib ki, yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olan amillərdən biri də sürücünün sükan arxasında idarəetməni itirməsidir: ”Təəssüflə qeyd edək ki, bəzi sürücülər avtomobildə hərəkətdə olan zaman əlini pəncərədən çölə çıxarırlar ki, bu da öz növbəsində idarəetməni çətinləşdirir və eyni zamanda qəza riskini artırır”.

Məlumatda qeyd olunub ki, mövcud qanunvericiliyin tələblərinə əsasən sürücü hərəkət zamanı sükanı əlindən buraxmamalıdır, belə hal aşkarlandığı təqdirdə sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin 342.1.4-cü (hərəkət zamanı sükanı əldən buraxmağa görə) maddəsinə uyğun olaraq qırx manat məbləğində cərimə tətbiq ediləcək: :Bakı Şəhər DYP İdarəsi sürücülərə müraciət edərək baş verə biləcək xoşagəlməz hadisələrin qarşısının alınması məqsədilə onlardan diqqətli olmağı, yol hərəkəti qaydalarına birmənalı olaraq riayət etmələrini xahiş edir”.

# Metroda doğulan bu uşaq 25 yaşına qədər metrodan ödənişsiz istifadə edəcək...



Dünən saat 07:40 radələrində ”Bakı Metropoliteni” QSC-nin “20 Yanvar” stansiyasında bir qadın uşaq dünyaya gətirib. Bu barədə Səhmdar Cəmiyyətdən mətbuata məlumat verilib. Məlumata görə, hadisə zamanı stansiya əməkdaşları ona ilkin yardım göstərib. Çağırılmış təcili tibbi yardım briqadası stansiyaya gələrək zəruri tibbi müdaxilə edib. Qadın sağlam şəkildə övladını dünyaya gətirib. Onlar saat 08:06-da stansiyadan xəstəxanaya aparılıblar. Bakı metrosunda yeni doğulmuş körpə metronun bir növ “xüsusi sərnişini” olacaq. Bu barədə KİV-ə ”Bakı Metropoliteni” QSC-dən bildirilib. ”Simvolik olaraq ona 25 yaşına qədər metrodan ödənişsiz istifadə hüququ təqdim olunacaq. Bundan başqa, ailəyə kiçik hədiyyələr də təqdim ediləcək”, - deyə məlumatda bildirilib.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ev təmiri xərcləri kəskin artıb: Səbəb nədir?

“Ailələrdə təmir işlərinə olan maraq son illərdə artmaqdadır. İlk növbədə, yeni mənzilə köçən şəxslər yaşayışın ilk 5–10 ayı ərzində daha çox təmir və yenidənqurma işləri həyata keçirirlər. Bu, ailələrin mənzil şəraitini fərdiləşdirməyə və ehtiyaclarına uyğunlaşdırmağa çalışmaları ilə əlaqələndirilə bilər”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eyyub Kərimli deyib.



İQTİSADÇI AÇIQLADI



Eyyub Kərimli sözlərinə belə davam edib: “Eyni zamanda, ölkə üzrə genişmiqyaslı tikinti fəaliyyəti də bu tendensiyanı gücləndirir. Xüsusilə Qarabağ bölgəsində aparılan bərpa və yenidənqurma işləri, Bakı və digər regionlarda yeni yaşayış komplekslərinin inşası, köhnə məhəllələrin sökülməsi və yenidən salınması təmir işlərinə olan tələbatı artırır. Bu proseslər, əhalinin yaşayış sahələrinin yenilənməsinə və təkmilləşdirilməsinə yönəlmiş səylərini əks etdirir.

Digər mühüm faktor tikinti və təmir materiallarının idxalı ilə bağlıdır. Bu materialların əhəmiyyətli hissəsi, xüsusilə də Rusiya kimi xarici ölkələrdən gətirilir ki, bu da onların qiymətində artıma səbəb olur. Qiymət artımı öz növbəsində təmir işlərinin ümumi dəyərinə təsir edir.

Statistik məlumatlara əsasən, hər il ölkədə tikilən yeni mənzillərin sayında təxminən 15%-ə qədər artım müşahidə olunur. Bu da təmir sahəsinə olan tələbatın artmasına şərait yaradır. Bununla yanaşı, bir çox ailələr köhnə mənzillərini sökərək yenidən təmir etməyə üstünlük verirlər. Eyni zamanda, əhalinin artımı və yaşayış sahələrinə olan ehtiyacın genişlənməsi bu prosesi stimullaşdıran əlavə amillərdəndir. Nəticə etibarilə, bütün bu faktorlar tikinti və təmir sektorunun aktivliyini, eyni zamanda təmir xərclərinin artımını şərtləndirir”.

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**